

Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır



# Zəngəzuru tanıyaq və tanıdaq!

Bax səh. 4


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 16 avqust 2022-ci il, çərşənbə axşamı / № 145 (6247). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik




## Azərbaycanın beynəlxalq nəqliyyat potensialına maraq artır



Bax səh. 2

## Həqiqət və reallıq

Ermənistan hakimiyyətinin qeyri-səmimi davranışları, iqtisadi gücsüzlük, verilən vədlərin quru sözdən uzağa gedə bilməməsi Qarabağda yaşayan ermənilərlə Ermənistan arasında dərin bir uçurum yaradıb. Artıq Qarabağ erməniləri Ermənistandan verilən vədlərə inanmırlar. Beləliklə də, Ermənistan Qarabağda yaşayan ermənilər üzərində təsir imkanlarını itirir. İsmayıllı rayonunun Basqal kəndində Azərbaycan televiziyasına müsahibəsində bu məqamlara toxunan Prezident İlham Əliyev bildirib ki, yeni Laçın yolunun hadisəsi bunu daha da qabarıq şəkildə göstərdi, - Ermənistan hakimiyyəti Qarabağda yaşayan ermənilərə öz təsir imkanlarını itirir. Bu, həqiqətdir: "Əksinə, Azərbaycan hakimiyyəti öz təsir imkanlarını artırır. Bu, reallıqdır. Bunun səbəbi, məncə, ondan ibarətdir ki, Qarabağda yaşayan ermənilər açıq-aydın gördülər ki, Ermənistan hakimiyyəti onların problemlərini həll etmək iqtidarında deyil - nə təhlükəsizlik, nə iqtisadi, nə maliyyə, nə başqa. Heç bir problemi həll etmək...

Bax səh. 2

## Azərbaycan üzərindən Şimaldan Cənuba

Yaxın vaxtlarda Azərbaycan-İran-Rusiya hökumət rəsmilərinin üçtərəfli görüşünün keçiriləcəyi gözlənilir. Artıq görüşün gündəliyi də açıqlanıb. Üç ölkənin rəsmilərinin bir araya gələcəyi tədbirdə əsas müzakirə mövzusu Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi ilə bağlı olacaq. Bu barədə İranın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi bildirib. "İran-Azərbaycan-Rusiya arasında keçiriləcək üçtərəfli görüşdə tranzit və gömrük məsələləri, həmçinin Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi marşrutlarının şaxələndirilməsi, eləcə də İranın nəqliyyat naziri ilə Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat nazirinin görüşündə dəmir yolu terminalı, yeni sərhəd körpüsü layihələrinin son vəziyyəti nəzərdən keçiriləcək", - deyə səfir vurğulayıb.

**Ən qısa və sərfəli nəqliyyat dəhlizi**

Beynəlxalq daşımalarda dəhlizlərə verilən əsas tələblər yüklərin təyinat üzrə...

Bax səh. 5

# "Qisas" son olmaya bilər!

## Prezidentdən mühüm mesaj

Bax səh. 2

# Hədəf - daxili təminatı 100 faizə çatdırmaqdır

Bax səh. 5

## Yaşamağa dəyər!

Demoqrafik proseslər və immiqrasiya bir ölkədə yaşam standartlarının hansı səviyyədə olmasından xəbər verir. Ona görə də müvafiq qurumlar tərəfindən bu məsələlər nəzarətdə saxlanılır və məlumatlar ictimaiyyətlə paylaşılır. Dövlət Statistika Komitəsinin 11 avqust tarixli məlumatına əsasən, ölkə əhalisinin sayı ilin əvvəlindən 29418 nəfər və ya 0,3 faiz artaraq 2022-ci il iyul ayının 1-i vəziyyətinə 10185784 nəfərə çatıb. Əhalinin ümumi sayının 52,9 faizini şəhər, 47,1 faizini kənd sakinləri təşkil edib. Əhalinin tərkibində kişi və qadınların xüsusi çəkiləri isə dəyişməz qalıb. Cari ilin birinci yarısında Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 1215 nəfər gələn, Azərbaycandan isə 442 nəfər gedən qeydə alınıb. Qeyd olunub ki, miqrasiya saldosu ölkə üzrə müsbət 773 nəfər təşkil edib.

Ən yüksək yaşayış səviyyəsinə malik yerlərin və daha yaxşı...

## Azərbaycanın tələbi

44 günlük müharibənin başa çatmasından iki ilə yaxın vaxt ötür. Bu müddətdə qalib Azərbaycan 10 noyabr 2020-ci il tarixində imzalanan üçtərəfli Bəyanatın ona aid olan müddəalarının yerinə yetirilməsi istiqamətində əməli fəaliyyət həyata keçirib. Respublikamız o mövqedən çıxış edir ki, müharibə səhifəsi birdəfəlik bağlanmalı, regionda davamlı sülh və təhlükəsizlik təmin edilməli, əməkdaşlıq imkanlarından istifadə olunmalıdır. Məğlub Ermənistana gəldikdə isə, bu ölkə onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalasa da, sənədin tələblərinə əməl etməmək üçün müxtəlif bəhanələr gətirir, vaxtı uzatmağa çalışır. Hətta bu ölkədə revanşist fikirlər də səsləndirilir. Ermənistanın yayınmağa çalışdığı məsələlərdən biri də Zəngəzur dəhlizinin açılması ilə bağlıdır.

**Zəngəzur dəhlizinin açılması tarixi zərurət kimi**

Blokada şəraitində yaşayan Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirəcək...

## ABŞ və Rusiya BMT-nin çağırışına "hə" deyəcəkmi?

Hazırda artan geosiyasi gərginliklər, xüsusilə də Rusiya-Ukrayna müharibəsi fonunda beynəlxalq ictimaiyyəti narahat edən ən aktual məsələlərdən biri "Nüvə müharibəsi başlayacaqmı" sualı ilə bağlıdır. Artan narahatlıqlar fonunda aydın şəkildə etiraf olunur ki, nüvə müharibəsi heç bir dövlətə, hətta geniş arsenala malik ölkələrin özlərinə belə fayda gətirməyəcək, əksinə bundan bütün bəşəriyyət miqyası təsəvvür edilməyəcək qədər böyük ziyan çəkəcək.

Belə çətin şəraitdə dünyada nüvə dövlətlərinin sayı çox olsa da, nəzərlər əsasən iki supergüc dövlətə - Amerika Birləşmiş Ştatlarına və Rusiyaya dikilib. Bu da başadüşülləndir - bəhs olunan dövlətlər böyük nüvə potensialına malikdirlər. Səbəb həm də yalnız bu deyil. Məsələ burasındadır ki, ABŞ və Rusiyanın mövqeyi bir sıra məsələlərdə tamam əks-qütblərdə dayanır. Onlar dünyada nüfuz savaşı aparırlar, bir-birləri ilə rəqabətdədirlər və bu rəqabət bir sıra hallarda açıq müstəviyə keçərək...

## İsti havalarda iş rejimi necə olmalıdır?

Ölkə ərazisində bir neçə gündür ki, anomal hava şəraiti müşahidə olunur. Havaların isti keçməsi iş rejiminin necə olması ilə bağlı məsələnin aktuallaşmasına səbəb olub. Kəskin istilər olarkən açıq havada işləyən insanların təhlükəsizliyi məsələsi də gündəmə gəlir. Məlumdur ki, kəskin istilər olduqda günvurmaya məruz qalanların da sayı çoxalır.

Əmək Məcəlləsinin 233-cü maddəsinə əsasən, havanın temperaturu 41 dərəcə Selsidən çox olduğu hallarda açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılmalıdır. Belə hallarda işçilərin həyat və sağlamlığının mühafizəsi məqsədilə onlara sərinləşmək üçün imkan yaradılmaqla fasilələr verilməli və işəgötürənlə həmkarlar təşkilatının birgə qərarı əsasında fasilələrin sayı, müddəti müəyyən olunmalı, eyni zamanda iş zamanı verilmiş fasilələr iş vaxtına daxil edilməlidir. Həmin fasilələr zamanı əmək haqqı işçilərin tarif maaşına görə ödənilməlidir. İş dayandırıldıqda boşdayanma vaxtının haqqının işçinin təqsiri...

## Tələblər yumşaldılıb

Son günlər ipoteka kreditlərinin verilməsi qaydalarına edilən dəyişiklik geniş müzakirələrə səbəb olub. Sosial şəbəkələrdə yayılan iddialara görə, ipoteka kreditlərinin götürülməsi üçün tələb olan ilkin ödənişin məbləği artırılır. Bu və digər bənzər iddialar səbəbindən də bəzi vətəndaşlar sözügedən qərarın tətbiq edilməsilə uzunmüddətli kreditlərin əldə olunmasında müəyyən çətinliklərin yaranacağından narahatdırlar.

**Deyilənlər həqiqəti əks etdirirmi? Yeni qərar nəyi dəyişəcək?**

Mərkəzi Bankdan "Yeni Azərbaycan" qəzetinin sorğusuna cavab olaraq bildirildi ki, Mərkəzi Bankın 22 iyul 2022-ci il tarixli 29/1-2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Kredit riskləri, o cümlədən iri kredit riskləri ilə bağlı prudensial normativ və tələblərə dair Qayda"da daşınmaz əmlak krediti üzrə ilkin ödənişə dair tələblər sərtləşdirilməyib, əksinə yumşaldılıb: "Yeni qaydanın qəbulundan sonra daşınmaz əmlak krediti mülkiyyətində yaşayış sahəsi olmayan fiziki şəxs tərəfindən alındıqda və həmin yaşayış sahəsinin ipotekası ilə təmin edildikdə...



# Zabux və Sus öz tarixi sakinlərini gözləyir

Bax səh. 3

# Azərbaycanın beynəlxalq nəqliyyat potensialına maraq artır



## B.Torobayev Prezidentin qəbulunda

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 15-də Qırğız Respublikasının Nazirlər Kabinetinin sədr müavini Bakıt Torobayevi qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Bakıda keçiriləcək iclasına toxunaraq, bu formatın iqtisadi və digər sahələrdə qarşılıqlı fəaliyyətin möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvarlığını bildirdi.

İkitərəfli əlaqələrdən danışan dövlətimizin başçısı yüksək səviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin genişləndirilməsinə verdiyi töhfəni qeyd etdi. Bu baxımdan Qırğız Respublikasının Prezidentinin bu il ölkəmizə səfəri zamanı əməkdaşlığın geniş gündəliyi ilə bağlı səmərəli danışıqların aparıldığını və dövlət başçıları arasında çox yaxşı şəxsi təmasın qurulduğunu dedi. Prezident İlham Əliyev bildirdi ki, səfər çərçivəsində ikitərəfli əlaqələrin möhkəmləndirilməsi, beynəlxalq təşkilatlarda əməkdaşlıq, Azərbaycanın Qırğızıstana investisiya qoyuluşu və əməkdaşlığın digər sahələrini əhatə edən məsələlərlə bağlı müzakirələr aparılıb.

Ölkəmizdə şaxələndirilmiş nəqliyyat infrastrukturunun yaradıldığını qeyd edən dövlətimizin başçısı Azərbaycanın beynəlxalq nəqliyyat potensialına digər ölkələrin, o cümlədən Mərkəzi Asiya ölkələrinin getdikcə daha böyük maraq göstərdiyini bildirdi, eyni zamanda, Mərkəzi Asiya regionunda da Xəzər dənizi hövzəsinə çıxan yeni dəmir yolu şəbəkələrinin yaradılması ilə bağlı planların da əhəmiyyətini vurğuladı.

Bakıt Torobayev, ilk növbədə, Qırğız Respublikasının Prezidenti Sadır Japarovun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Sadır Japarova çatdırmağı xahiş etdi.

Qonaq qeyd etdi ki, tarixi, mədəni köklərə söykənən Azərbaycan-Qırğızıstan münasibətlərinin müasir dövrdə əsası dünya səviyyəli tarixi şəxsiyyət, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub və bu gün Prezident İlham Əliyevin dəstəyi ilə strateji tərəfdaşlıq səviyyəsinə qalxıb.

Söhbət zamanı humanitar və təhsil sahələrində əməkdaşlığın önəmi qeyd edildi, kənd təsərrüfatı, energetika, investisiya qoyuluşu ilə bağlı gələcək əməkdaşlıq məsələləri müzakirə olundu.

## Prezident bu gün

Azərbaycan Respublikası
Prezidentinin Administrasiyası

**Prezident İlham Əliyev (2004-2021-ci illər) 16 avqust**

4 qəbul;

1 müşavirə keçirib;

2 görüşü olub. (Türkiyə Prezidenti Abdullah Gül ilə, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev ilə)

28 Sərəncam;

1 Fərman imzalayıb.

1 səfirin etimadnaməsini qəbul edib. (Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bert Skufsun)

6 açılış mərasimində; (Tofiq Bəhramov adına Respublika Stadionunun, Şəki-Qax-Zaqatala avtomobil yolunun Şəki-Qax hissəsinin, Qaxda Olimpiya İdman Kompleksinin, Qaxa səfəri çərçivəsində Heydər Əliyev Mərkəzinin açılışında, Qax şəhərinin su təchizatı və kanalizasiya sistemləri kompleksinin istifadəyə verilməsi mərasimində, Qaxda "El Resort" hotelinin Konfrans Mərkəzinin açılışında)

XXVIII Yay Olimpiya oyunları çərçivəsində keçirilən Azərbaycan günündə;

Dövlət Sərhəd Xidmətinin hərbi hissələrinə döyüş bayraqlarının verilməsinə həsr olunmuş təntənəli mərasimdə;

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) III Zirvə toplantısında iştirak edib.

3 regiona səfər edib. (Qax, Kəlbəcər, Laçın)

Afinada Olimpiya kəndində olub.

Bakının Səbail rayonundakı 189 və Yasamal rayonundakı 150 nömrəli orta ümumtəhsil məktəblərinin binalarında aparılan əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanış olub.

# "Qisas" son olmaya bilər!

## Prezidentdən mühüm mesaj



2020-ci ildə baş vermiş İkinci Qarabağ Müharibəsi regionda güc balansının Azərbaycanın tərəfində olduğunu bir daha nümayiş etdirdi. Azərbaycanın "dəmir yumruğunun" qarşısında cəmisi 44 gün duruş gətirə bilən Ermənistan noyabrın 10-da imzaladağı kapitulyasiya sənədi ilə ölkəmizin qələbəsini qəbul etdi. Bununla belə, ötən 2 ilə yaxın müddət ərzində rəsmi İrəvan imzaladığı sənədlə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən yayınır. Məsələn, erməni silahlılarının Azərbaycan torpaqlarını tam şəkildə tərk etməsi ilə bağlı öhdəlik hələ də yerinə yetirilmir. Hələ də Azərbaycan ərazisində qalan bu erməni silahlıları vaxtaşırı təxribatlar törədir, silahlı insidentlərlə sabitliyi pozur, regional təhlükəsizliyə təhdid yaradır.

**"Qisas" əməliyyatı cəza tədbiri idi...**

Bir müddət öncə Silahlı Qüvvələrimizin uğurla həyata keçirdiyi "Qisas" əməliyyatı isə Azərbaycanın bu təxribatlara layiqli cavabı oldu. Belə ki, ermənilərin törətdiyi növbəti təxribat nəticəsində bir hərbi qulluqçumuzhun şəhid olmasının ardından Azərbaycan Ordusu həmin bölgədə əməliyyat reallaşdırdı. Bu, Ermənistan hakimiyyəti üçün növbəti zərbə idi. Prezident İlham Əliyev İsmayıllı rayonunun Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibəsində bu məsələyə toxunaraq bildirib ki, şəhidimizin qanı yerdə qalmadı: "Bu hərbi təxribat nəticəsində bir hərbçimiz şəhid oldu. Allah ona rəhmət eləsin. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ancaq hər kəs gördü və görməlidir ki, şəhidimizin qanı yerdə qalmadı. Biz dərhal "Qisas" əməliyyatı keçirərək şəhidimizin qanını aldıq və qarşı tərəfi ciddi cəzalandırdıq. Bir neçə saat ərzində davam edən "Qisas" əməliyyatı cəza tədbiri idi. Azərbaycan şəhidinin qanı düşmənlərə baha başa gəldi və onlar bunu unutmamalıdır. Əgər yenə də buna oxşar təxribat törədilərsə, cavab da eyni olacaq və heç kim bizə mane ola bilməz, heç kim bizi durdura bilməz".

2 ilə yaxın müddətdə özünün silahlı tör-töküntülərini Azərbaycan torpaqlarından çıxarmayan Ermənistan bu əməliyyatdan dərs götürməlidir. Üzərinə götürdüyü öhdəlikləri yerinə yetirən Azərbaycan analoji addımın qarşı tərəfdən də atılmasını səbrlə gözləyir. Qarşı tərəfin qeyri-adekvat addımları isə Azərbaycanı yeni əməliyyatlara sövq edir. Prezident İlham Əliyevin bu kimi təxribatların cavabının da "Qisas" kimi əməliyyatlar olacağını söyləməsi isə Ermənistana mühüm bir mesajdır. Dünyadakı erməni lobbisinə, o cümlədən, öz havadarlarına güvənərək vaxt uzatmaq, status-kvonu qorumaq üçün min bir yola baş vuran Ermənistan anlamalıdır ki, artıq regional reallıqlar dəyişib. Bu gün Azərbaycanı heç kim durdura bilməz. Öz torpaqlarını işğaldan azad etmək uğurunda qətiyyət nümayiş etdirən ölkəmiz məsələnin siyasi tərəflərini də həll edib. Artıq bütün dünya Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi, Qarabağ münaqişəsinin bitdiyini qəbul edir, təsdiqləyir. Belə olan halda Ermənistanın nəyəsə ümid edərək vaxt udmağa çalışmasının heç bir əhəmiyyəti yoxdur.

**Nə istəmişiksə, onu da etmişik...**

Prezident İlham Əliyev öz çıxışında onu da vurğulayıb ki, "Qisas" əməliyyatının çox təsirli, ancaq qısamüddətli olması onu göstərir ki, bizim gücümüz də yerindədir, eyni zamanda, biz yeni müharibə istəmirik. "Çünki İkinci Qarabağ müharibəsi gücümüzü göstərdi və biz istədiyimizə hərbi və ondan sonra hərbi-siyasi yollarla nail olduq. Digər arzularımıza da çatacağıq, zaman gələndə onlara da çatacağıq. Bizim gündəliyimizdə həm taktiki, həm strateji addımlarımızın təsbit edilməsi reallıqdır. Əminəm, Ermənistan da bilir ki, biz bilirik nəyi nə vaxt etmək lazımdır və nəyi deyiriksə, onu da edirik. Dəfələrlə Ermənistana xəbərdarlıq etmişdik ki, odla oynamasınlar, özlərini yaxşı aparsınlar, yeni reallıqları qəbul etsinlər və hərbi təxribatlara əl atmasınlar. Əfsuslar olsun ki, bu dəfə də onlara dərs verməli olduq. Ümid edirəm ki, bu dəfə bu dərs onların yaddaşında qalacaqdır", - deyən ölkə başçısı əlavə edib ki, "Qisas" əməliyyatı təkcə şəhidimizin qisasının alınması məqsədi daşımırdı. Təkcə onu demək istəyirəm ki, nə istəmişiksə, onu da etmişik, artıqlaması ilə və qarşı tərəf bunu bir daha qəbul etməyə məcburdur.

Azərbaycan bir daha regional problemin həlli ilə bağlı diktə edən tərəf olduğunu ortaya qoyur. Bununla yanaşı, Azərbaycan 10 noyabr üçtərəfli razılaşmasının ardından başlatdığı siyasi proseslərlə növbəti dəfə müharibə istəyində olmadığını açıq şəkildə nümayiş etdirir. Təbii ki, istər Rusiyanın, istərsə də Avropa İttifaqının modeoratorluğu ilə aparılan danışıqlar prosesində Azərbaycanın sülhpərvər, eyni zamanda qalib ölkə olaraq maraqlarının təmin edilməsi əsas cəhət sayılır. Ermənistan isə məğlub ölkə olaraq öz əsassız iddialarından geri çəkilməli, Azərbaycanın ərazi bütövlüyünü tanımalı və sərhədlərimizin toxunulmazlığına təminat verməlidir. Əks halda, "Qisas" əməliyyatı son olmaya da bilər. Prezident İlham Əliyevin "nə istəmişiksə, onu da etmişik, artıqlaması ilə və qarşı tərəf bunu bir daha qəbul etməyə məcburdur" fikri bir daha təsdiq edir ki, Azərbaycan öz mövqeyindən bir addım da olsun geri çəkilmək fikrində deyil. Sadəcə olaraq, Azərbaycanın prosesi sülh yolu ilə inkişaf etdirmək istəyinə adekvat şəkildə cavab verməyən Ermənistan "dəmir yumruğu"muzu "Qisas" şəklində həzm etmək məcburiyyətindədir.

*Pərviz SADAYOĞLU*

*PƏRVİZ*

# Həqiqət və reallıq

## Qarabağ erməniləri Ermənistana inanmır

Ermənistan hakimiyyətinin qeyri-səmimi davranışları, iqtisadi gücsüzlük, verilən vədlərin quru sözdən uzağa gedə bilməməsi Qarabağda yaşayan ermənilərlə Ermənistan arasında dərin bir uçurum yaradıb. Artıq Qarabağ erməniləri Ermənistandan verilən vədlərə inanmırlar. Beləliklə də, Ermənistan Qarabağda yaşayan ermənilər üzərində təsir imkanlarını itirir. İsmayıllı rayonunun Basqal kəndində Azərbaycan televiziyasına müsahibəsində bu məqamlara toxunan Prezident İlham Əliyev bildirib ki, yeni Laçın yolunun hadisəsi bunu daha da qabarıq şəkildə göstərdi, - Ermənistan hakimiyyəti Qarabağda yaşayan ermənilərə öz təsir imkanlarını itirir. Bu, həqiqətdir: "Əksinə, Azərbaycan hakimiyyəti öz təsir imkanlarını artırır. Bu, reallıqdır. Bunun səbəbi, məncə, ondan ibarətdir ki, Qarabağda yaşayan ermənilər açıq-aydın gördülər ki, Ermənistan hakimiyyəti onların problemlərini həll etmək iqtidarında deyil - nə təhlükəsizlik, nə iqtisadi, nə maliyyə, nə başqa. Heç bir problemi həll etmək iqtidarında deyil. Əksinə, gördü ki, Azərbaycan hakimiyyəti onlara öz vətəndaşları kimi yanaşır və mən bunu demişəm, birinci dəfə deyil. Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Nə qədər onlar bunu tez dərk etsələr və bu proses artıq başlayır, o qədər də hamımız üçün yaxşı olar".

Bu gün Qarabağda yaşayan ermənilər Azərbaycan dövlətinin işğaldan azad edilmiş regionlarında öz vətəndaşları üçün yaratdığı şəraiti görür. Yaradılan imkanları öz həyatları ilə müqayisə edən Qarabağ erməniləri bundan ibrət götürməlidirlər. Azərbaycan dövləti hər zaman özünün humanist siyasətini ortaya qoyub - Qarabağda yaşayan ermənilərə Azərbaycan vətəndaşı kimi yanaşılması bu humanizmin göstəricisidir. Anlamalıdırlar ki, Ermənistanın əsassız iddialarının arxasınca getmək onların maraqlarını təmin etməyəcək. Bu ölkə nəinki Qarabağda yaşayan ermənilərin, öz vətəndaşlarının belə təhlükəsizliyini təmin etmək, maliyyə prloblemlərini həll etmək, onların hüquqlarını qorumaq iqtidarında deyil. Məğlub Ermənistan hazırda necə yaşayacağının yollarını araşdırır ki, bu yol da Azərbaycanla normal qonşuluq siyasətinə əsaslanır. Bunun əksi isə Ermənistan üçün qarşısıalınmaz faciələrə yol aça bilər.

**Danışıqlar masasında hər hansı bir statusdan söhbət belə getmir**

Üçtərəfli bəyanatın imzalanması ilə Qarabağ münaqişəsi sona yetdi. Artıq yeni mərhələ üzrə - normallaşma prosesi üzrə inkişaf edən danışıqlar prosesində Qarabağ mövzusu yoxdur. Prezident İlham Əliyev bildirib ki, bu gün danışıqlar masasında hər hansı bir statusdan, ümumiyyətlə, söhbət belə getmir. Nədən söhbət gedir? Qarabağda yaşayan ermənilərin hüquqları və təhlükəsizliyi: "Mən də demişəm bəli, onların hüquqları da, təhlükəsizliyi də Azərbaycan dövləti tərəfindən təmin ediləcək və mən nəyi deyirəmsə, onu da həmişə icra edirəm".

**Yeni mərhələ üzrə - normallaşma prosesi üzrə inkişaf edən danışıqlar prosesində Qarabağ mövzusu yoxdur**

Yerləşdiyi regionun lider dövləti Azərbaycan buna qadirdir. Başqa sözlə, Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinin və hüquqlarının müdafiəsinin təmini Azərbaycanın qarantı altındadır. Bu proses artıq başlayıb. Laçın dəhlizinə alternativ yolun tikintisi zamanı həmin ərazidə yaşayan ermənilərin davranışları, onların Azərbaycan dövlətinə təşəkkür etməsi onu sübut edir ki, həmin şəxslər Ermənistana yox, Azərbaycana inanırlar. Prezident İlham Əliyev öz müsahibəsində maraqlı bir məsələyə toxunub: "Yeni Laçın yolunun inşası zamanı biz bunu gördük. Çünki mən deyə bilərəm ki, biz bu yolu təzə inşa etməyə başlayanda rus sülhməramlıları bizim inşaatçıları elə bil ki, qoruyurdu yerli əhalidən, ya da ki, onları bizdən, bizim inşaatçılardan. Bilmirəm kimi kimdən qoruyurdu, amma hər halda onlar var idi orada. Bir müddətdən sonra onlar çıxıb getdilər və təqribən son 6-7 ay ərzində, ümumiyyətlə, yol boyunca bir dənə də Rusiyanın sülhməramlıları yox idi, ehtiyac yox idi. Bizim inşaatçılar oradakı kəndlərdə yaşayan yerli ermənilərlə təmasda idilər, hətta onların bəziləri gəlib kömək edirdi, təşəkkürünü bildirirdi ki, belə keyfiyyətli yol tikirik".

Bu kimi faktlar regionun siyasi reallıqlarının dəyişdiyi kimi, Qarabağda yaşayan ermənilərin də reallıqları qəbul etdiyinin göstəricisidir. Onlar dərk edirlər ki, Azərbaycan dövləti tarixi ədalətsizliyə son qoyaraq öz ərazi bütövlüyünü təmin edib. Bu isə Qarabağ ermənilərinin gələcəyi üçün də mühüm bir amildir.



# Zabux və Sus öz tarixi sakinlərini gözləyir

## Prezident: Biz onları yaxın zamanlarda öz doğma yerlərinə qaytaracağıq...

*P.İSMAYILOV*



Alternativ Laçın yolunun üçtərəfli razılaşmada qeyd olunan müddətdən daha tez öz həllini tapması Azərbaycanın iqtisadi, siyasi gücünün növbəti göstəricisidir. İşğaldan azad edilmiş regionlarda mühüm infrastruktur layihələri həyata keçirən, həmin ərazilərə Böyük qayıdışın təmin olunması yönündə bütün gücünü səfərbər edən Azərbaycan qısa müddət ərzində Laçın şəhəri, Zabux və Sus kəndlərinin sakinlərinin də öz dədə-baba torpaqlarına qovuşmasına şərait yaradacaq.

İsmayıllının Basqal qəsəbəsində Azərbaycan televiziyasına müsahibəsində bu məsələyə toxunan Prezident İlham Əliyev bildirib ki, biz Laçına qayıtmalıyıq, Zabuxa, Susa qayıtmalıyıq: “Mən Dövlət qaçqınkoma göstəriş verdim, Laçın şəhərinin, Sus, Zabux kəndlərinin camaatı ilə əlaqə saxlasınlar və biz onları yaxın zamanlarda öz doğma yerlərinə qaytaracağıq”.

**Hərbi cinayətkardırlar...**

Laçın rayonunun inzibati ərazisinə daxil olan Zabux kəndi Zabux çayının sahilində, Qarabağ yaylasında yerləşir. Keçmiş adı Xut Zabux olan kənd XIX əsrdə Şuşa-Gorus yolunun döngəsində poçt dayanacağı kimi fəaliyyət göstərib, mövqeyinə görə Zabox (Zabux) adlanıb. Sonralar yaxınlığındakı Baharlı və ona birləşən Sadmanlı kəndləri də həmin adla adlandırılıb. Bütün tarixi dövrlərdə, Zabux kəndinin etnik tərkibi azərbaycanlılardan ibarət olub. Əhalinin əsas məşğuliyyəti bostançılıq, bağçılıq və heyvandarlıq idi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən Zabux kəndi strateji bir ərazi olduğu üçün ermənilər həmin əraziyə Suriya və Livandan erməniləri köçürüblər. 2006-cı ilin statistikasına görə, kəndin əhali sayı 570 nəfər təşkil edib. Həkəri və Zabux çaylarının sahilində, Qarabağ yaylasında yerləşən Sus kəndi də eyni aqibətlə üzləşib. Belə ki, adıçəkilən köçürmələrdən sonra kənddə 250 nəfər xaricdən gətirilmiş erməni məskunlaşdırılıb.

Qeyd edildiyi kimi, işğal dövründə qeyri-qanuni məskunlaşma siyasətinə məruz qalan ərazilərimizdən Zabux və Sus kəndi artıq boşaldılır. Prezident İlham Əliyev müsahibəsində bildirib ki, Laçın şəhərindən, Zabux və Sus kəndlərindən qanunsuz məskunlaşmış insanlar çıxarılmalıdır: “Bu, təbiidir. Onların orada qalması, əslində, hərbi cinayətdir. Çünki o, Cenevrə konversiyalarının qaydalarına ziddir. İşğalçı ölkə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma apara bilməz. Bu, hərbi cinayətdir. Bəlkə də orada yaşayanlar Suriyadan, Livandan gəlmiş ermənilər bunu bilmirlər, amma Ermənistan rəhbərliyi bunu yaxşı bilir. Ona görə oradan bəzi xəbərlər gəlir, biri deyir ki, mən çıxmayacağam, o biri deyir ki, mən çıxmayacağam. Özləri bilər. Onlar hərbi cinayətkardırlar. Yenə də bizi, bizim səbrimizi sınağa çəkməsinlər. Öz xoşu ilə oradan çıxıb getsinlər. Haraya gedirlər bizi maraqlandırmır”.

Bəlli olduğu kimi, Azərbaycan həmin ərazilərin boşaldılması üçün ermənilərə vaxt qoyub. Bu, Azərbaycanın növbəti siyasi-hərbi qələbəsidir. Artıq Ermənistan Azərbaycan dövlətinin irəli sürdüyü şərtlərlə razılaşmaq məcburiyyətindədir. Regionda yaranan siyasi reallıqlar bunu deməyə əsas verir. Yeni yolun istifadəyə verilməsi də ölkəmizin bu məsələni qısa müddət ərzində həll etmək iqtidarında olduğunun göstəricisidir. Prezident İlham Əliyev bununla bağlı maraqlı məqamlar açıqlayıb. Belə ki, yeni yolla bağlı bəndin üçtərəfli Bəyanata salınması cənab Prezidentin qətiyyətinin nəticəsidir: “Ermənistanı Xankəndi ilə birləşdirən yol Laçın şəhərinin içindən keçir. Əgər bu bəndi mən saldırmasaydım, o zaman Laçın şəhəri həmin bu beş kilometr enində olan zonaya düşəcəkdi və tez bir zamanda oraya keçmiş köçkünləri qaytarmaq mümkün olmayacaqdı. Ona görə mən təkid edirdim və buna nail oldum ki, bu, məhz o məqsədlə sənədə salındı”.

Göründüyü kimi, Prezident İlham Əliyev regionun gələcək strateji inkişafını, hətta bu strateji inkişafın yol xəritəsini müəyyənləşdirən liderdir. Ölkə başçısı hələ iki il öncə öz qətiyyəti sayəsində bu yolun tikintisini planlaşdırmaqla Azərbaycan ərazilərində qeyri-qanuni məskunlaşdırılan ermənilərin torpaqlarımızı tərk etməsini təmin edib. Bu, düşmən ölkənin əlindəki “arqumentləri” də sıradan çıxarıb. Belə ki, artıq sülhməramlıların nəzarətində olmayan Zabuxda və Susda ermənilərin qalmasına ehtiyac yoxdur. Cənab Prezidentin də ifadə etdiyi kimi, onların hara gedəcəyi isə bizi maraqlandırmır.

**Yeni yolun marşrutunun müəyyənləşməsi Azərbaycanın daxili işidir**

O ki qaldı ermənilərin adıçəkilən Laçın dəhlizinə alternativ yolla bağlı başlatdığı hay-küy kampaniyasına, bunun da əsası yoxdur. Belə ki, yol çəkmək öhdəliyi götürdükləri indi “yadlarına düşən” ermənilər bu cür manipulyasiya etmək istəsələr də, baş tutmadı. Azərbaycan isə birgə bəyanat imzalanan vaxtdan etibarən işğaldan azad edilmiş bütün regionlarda, o cümlədən də, Laçın ərazisində lazımi işləri görməyə başladı. Prezident İlham Əliyevin bildirdiyi kimi, bütün Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı işlər aparılır. “O cümlədən bu yolun tezliklə inşa edilməsi mənim tərəfimdən əsas vəzifə kimi qarşıya qoyulmuşdu. Biz bu yolu cəmi bir il ərzində inşa etdik, 32 kilometr uzunluğunda olan bir yoldur. Ondan əvvəlki dövrdə, İkinci Qarabağ müharibəsindən dərhal sonra biz bu yolun marşrutu ilə bağlı Rusiya tərəfi ilə danışıqlara başlamışdıq. Yəni, bu yol öz-özünə yaranmadı. Biz bu yolu razılaşdırdıq. Bir neçə marşrut var idi və nəticədə bu marşrut seçildi. Rusiya Müdafiə Nazirliyi ən yüksək səviyyədə bu marşrutu bizimlə razılaşdırdı və təsdiqlədi. Əgər başqa cür olsaydı, biz Rusiyanın müvəqqəti nəzarətində olan ərazidə necə yol inşa edə bilərdik? Yəni, bu, təbiidir. Əgər kimsə bizi ittiham etmək istəyir ki, biz nəyisə qanunsuz etmişik, yaxud da, hansısa birtərəfli addım atmışıq, qətiyyən belə deyil. Biz istənilən səviyyədə bunu sübut edə bilərik”, - deyən dövlət başçısı əlavə edib ki, indi Rusiyanın rəsmi orqanlarına sorğu göndərilə bilər, necə bu yol tikilib bütün sənədlər var, bütün razılaşmalar var. Bu marşrut razılaşdırılmışdır. Əlbəttə ki, biz bu marşrutu Ermənistanla razılaşdırmalı deyildik. Çünki Ermənistanın buna heç bir aidiyyəti yoxdur. Sadəcə olaraq, Ermənistana bildirildi ki, Ermənistan sərhədinə çıxış hansı nöqtədən olacaq və onlar da öz tərəfindən yeni yolu o nöqtəyə gətirib çatdırmalı idilər. Amma əfsuslar olsun ki, bunu etmədilər. Nə üçün? Vaxtı uzatmaq üçün. Bunun başqa səbəbi yoxdur.

Göründüyü kimi, Ermənistan hazırki situasiyada da bu kimi yollarla manipulyasiya etməyə, vaxt uzatmağa cəhd göstərir. Amma bütün bu cəhdlər hamısı boşunadır. Azərbaycan öz uğurlu fəaliyyətini davam etdirir. Ermənistan isə hələ də anlamır ki, vaxt uzatmaq ən çox bu ölkənin ziyanına işləyir. Problemlər məngənəsində boğulan rəsmi İrəvanın gələcək üçün yeganə nicatı Azərbaycanla əlaqələrini bərpa etməkdir. Bunun üçün isə bütün təxribatçı əməllərdən əl çəkilməlidir. Əks halda, Ermənistanı daha ağır günlər, daha ağır çətinliklər gözləyir.

---

# Azərbaycanın tələbi

*MÜBARİZ*




## Ermənistan Zəngəzur dəhlizinin marşrutunu yaxın həftələrdə təqdim etməlidir

44 günlük müharibənin başa çatmasından iki ilə yaxın vaxt ötür. Bu müddətdə qalib Azərbaycan 10 noyabr 2020-ci il tarixində imzalanan üçtərəfli Bəyanatın ona aid olan müddəalarının yerinə yetirilməsi istiqamətində əməli fəaliyyət həyata keçirib. Respublikamız o mövqedən çıxış edir ki, müharibə səhifəsi birdəfəlik bağlanmalı, regionda davamlı sülh və təhlükəsizlik təmin edilməli, əməkdaşlıq imkanlarından istifadə olunmalıdır. Məğlub Ermənistana gəldikdə isə, bu ölkə onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalasa da, sənədin tələblərinə əməl etməmək üçün müxtəlif bəhanələr gətirir, vaxtı uzatmağa çalışır. Hətta bu ölkədə revanşist fikirlər də səsləndirilir. Ermənistanın yayınmağa çalışdığı məsələlərdən biri də Zəngəzur dəhlizinin açılması ilə bağlıdır.

**Zəngəzur dəhlizinin açılması tarixi zərurət kimi**

Blokada şəraitində yaşayan Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə birləşdirəcək kommunikasıyaların - avtomobil və dəmir yollarının açılmasını özündə ehtiva edən müddəa 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladıqları üçtərəfli Bəyanatda yer alıb. Sənədin 9-cu bəndində oxuyuruq: “Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir.

Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir”.

Qeyd edək ki, regionda kommunikasiyaların açılması ilə bağlı müddəa məhz qalib Azərbaycanın diktəsi ilə bəhs olunan sənəddə öz əksini tapıb. Burada hər şey konkret və aydın yazılıb. Sonradan Prezident İlham Əliyev Azərbaycanın əsas hissəsi ilə Naxşıvanı birləşdirəcək yolu Zəngəzur dəhlizi adlandırdı və bu termin beynəlxalq miqyasda qəbul olundu. Bu dəhliz Azərbaycandan Ermənistana və oradan Azərbaycanın Naxçıvan Muxtar Respublikasına gedərək Türkiyə və Avropaya qədər uzanacaq, beləliklə də, böyük bir coğrafiyada iqtisadi-nəqliyyat əlaqələrinin inkişafında öz rolunu oynayacaq.

Zəngəzur dəhlizinin açılmasının zəruriliyini bir sıra nöqteyi-nəzərdən əsaslandırmaq mümkündür. Bu yolun açılması Azərbaycanın milli, tarixi və strateji maraqlarına tam cavab verir. Naxçıvan Ermənistanın işğal siyasətinə görə üç onillik ərzində Azərbaycanın əsas hissəsindən izolə edilmişdi və blokada şəraitində yaşamaq məcburiyyətində qalmışdı. Nəzərdə tutulan dəhliz, nəhayət, Naxçıvanın blokadasına son qoyacaq.

Bəhs olunan marşrut regional əməkdaşlığın dərinləşməsinə yeni imkanlar açır. Bu dəhliz region dövlətlərini 3+3 və yaxud 3+2 formatında birləşdirəcək. Türkiyə, Rusiya, İran və Azərbaycan bu platformada yer almaq niyyətlərini birmənalı şəkildə ifadə ediblər. Ümumiyyətlə, burada uduzan tərəf yoxdur. Dəhlizin açılması, həmçinin üç onillik ərzində işğalçılıq siyasətinin girovuna çevrilən və dalan ölkə kimi bütün investisiya cəlbediciliyini itirən Ermənistanın özü üçün də faydalıdır. Dəhlizin açılması sayəsində bu ölkə qonşu dövlətlərlə, o cümlədən də İran və Rusiya kimi tərəfdaşları ilə nəqliyyat bağlantısına malik olacaq ki, bu da onun üçün hava və su kimi zəruridir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev Zəngəzur dəhlizinin açılmasını Ermənistan üçün qızıl fürsət kimi dəyərləndirib.

**Azərbaycanın siyasi iradəsi və gücü**

Azərbaycan Zəngəzur dəhlizinin açılmasına güclü siyasi iradə sərgiləyir. Digər tərəfdən, məsuliyyətli dövlət olan Azərbaycan üçtərəfli Bəyanatın regionda kommunikasiyaların açılmasını özündə ehtiva edən müddəalarının yerinə yetirilməsi üçün praktiki müstəvidə böyükhəcmli işlər görür. Zəngəzur dəhlizi dəmir yolu və avtomobil yolu seqmentlərindən ibarət olacaq. Respublikamızda dəhlizin hər iki seqmenti üzrə işlər intensiv şəkildə davam etdirilir. Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi üzrə böyük iş həcmi yerinə yetirilib. Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlətimizin başçısının tapşırığı ilə icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biridir. Sözügedən yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

Azərbaycandan Naxçıvana, oradan isə Türkiyəyə uzanacaq nəqliyyat dəhlizinin dəmir yolu seqmentinin Azərbaycan ərazisindən keçən hissəsində də işlər intensiv şəkildə davam etdirilir. Prezident İlham Əliyevin iştirakı ilə 14 fevral 2021-ci il tarixində təməli qoyulmuş Horadiz-Ağbənd dəmir yolu xəttinin ox üzrə uzunluğu 110,4 kilometrə bərabərdir. Birxətli dəmir yolu 8 stansiyadan ibarət olacaq, həmçinin layihə çərçivəsində ümumilikdə 300-ə yaxın süni mühəndis qurğusunun tikintisi planlaşdırılır. Horadiz stansiyası ilə yanaşı, digər yeddi stansiya - Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Mincivan, Bartaz və Ağbənd tamamilə yenidən tikiləcək. Ayrı-ayrı layihələr üzrə işlər artıq yekunlaşdırılıb.

Respublikamızın ərazisində Zəngəzur dəhlizinin hər iki seqmenti üzrə işlərin sürətlə davam etdirilməsi Azərbaycan dövlətinin gücünü nümayiş etdirir. Yalnız Azərbaycan kimi məsuliyyətli və güclü dövlət müharibədən təzə çıxmasına baxmayaraq, iri həcmlərdə maliyyə tutumuna malik layihələrin icrasını yüksək səviyyədə təmin edə bilər.

Azərbaycanın konstruktiv mövqeyinə rəğmən, Ermənistan Zəngəzur dəhlizinin açılmasında da qeyri-səmimilik nümayiş etdirərək gah nala vurur, gah da mıxa. Xatırlayaq: Başlanğıcda özünü cığal uşaq timsalında aparan Ermənistan ərazisindən maneəsiz keçidin təmin olunmasını “suveren hüquqlarının pozulması” kimi yozmağa çalışırdı. Bu bəhanə işə yaramadıqda, forpost ölkənin rəsmiləri dəhliz üzərində sərhəd keçid və gömrük məntəqələrinin qurulmasının “zəruriliyini” əsaslandırmağa çalışdılar. Bu “əsaslandırma” da bir işə yaramadı. Azərbaycan Prezidenti qarşı tərəfə sərt mesajlarını çatdıraraq bildirdi ki, Zəngəzur dəhlizində hansı şərtlər tətbiq ediləcəksə, Laçın yolunda da eyni qaydalar qüvvəyə minəcək.

Məğlub Ermənistanın digər bir, yumşaq desək, cığallığı marşrutla bağlıdır. Qeyd etdiyimiz kimi, müharibə iki il bundan qabaq bitib. Ermənistan isə yeni dəhlizin qurulması ilə bağlı qabağa heç bir addım da atmayıb. Naxçıvanla Azərbaycanın əsas hissəsini birləşdirəcək avtomobil yolunun Ermənistandan keçəcək hissəsinin marşrutu hələ də dəqiqləşməyib. Ermənistan Azərbaycandan Naxçıvana uzanacaq avtomobil yolu üçün Laçın-Gorus marşrutunu təklif edir. Bu marşrut həm relyef, həm də iqtisadi baxımdan səmərəli deyil. Azərbaycan avtomobil yolunun dəmir yolu xəttinə yaxın və paralel çəkilməsinin tərəfdarıdır. Respublikamızın mövqeyi dəfələrlə Ermənistan rəhbərliyinin diqqətinə çatdırılıb. Prezident İlham Əliyev İsmayıllı rayonunun Basqal qəsəbəsində Azərbaycan Televiziyasına verdiyi müsahibədə qarşı tərəfə son sərt xəbərdarlığını edərək vurğulayıb: “Zəngəzur dəhlizi lazımdır, ona da etiraz edirdilər. İndi yaxın həftələrdə Zəngəzur dəhlizinin marşrutunu biz onlardan gözləyirik”.

Qalib Azərbaycanın Prezidentinin son xəbərdarlığına məğlub Ermənistanın hansı cavabı verəcəyi hələlik bəlli deyil. Ancaq bir məqamı dəqiq şəkildə qeyd edə bilərik ki, Zəngəzur dəhlizi mütləq açılacaq, Ermənistan bunu istəsə də, istəməsə də!

# Zəngəzuru tanıyaq və tanıdaq!



## Zəngəzur - adı da, özü də bizə məxsus olan diyar

Yerin, ərazinin adı onun kimə məxsusluğu haqqında çox şey deyir.

Adları, təbii ki, insanlar verirlər və öz dillərinə, xarakterlərinə, tayfalarına, yaşadıqları yerin təbiətinə uyğun adlar düşünüb tapırlar.

Azərbaycanın ən qədim və ən şöhrətli torpaqlarından biri olan Zəngəzurun adının mənasını da Azərbaycanın tarixi keçmişində axtarmaq lazımdır.

Tarixi Zəngəzur ərazisi ayrı-ayrı dövrlərdə müxtəlif adlarla tanınıb.

Bölgənin ən qədim adlarından biri Sünik olmuşdur. Sünik Albaniyanın dörd böyük vilayətindən biri idi. Sünik bəzi dövrlərdə müstəqil knyazlığa çevrilsə də, bəzən Atropatenanın, əksər dövrlərdə isə Albaniya dövlətinin tərkibində olmuşdur.

Qədim dövrü araşdıran bir sıra alimlər Sünik toponimini eradan əvvəl IV minillikdə Çinin indi uyğurlar yaşayan bölgəsindən Qafqaza köç etmiş syun-na, syun-nu tayfalarının adı ilə bağlayırlar.

Sünik adını "su ətrafı ərazi" kimi də yozurlar.

E.ə. III minilliklərdə regionda türk mənşəli su, (suv) tayfalarının məskunlaşması həmin ərazidə türk (suv) tayfalarının yaşaması ehtimalını gücləndirir.

Sünik adının fars variantı sayılan Sisakan adına ilk dəfə VI əsr Suriya salnaməçisi Zaxari Ritorun əsərində rast gəlinir. Müəllif 555-ci il hadisələrini təsvir edərkən Sisakanı Ərməniyyə ilə heç bir əlaqəsi olmayan, Arran və Qurzan (Gürcüstan) kimi müstəqil ölkə kimi xarakterizə etmişdir.

Alban tarixçisi Musa Kalankatlı "Alban tarixi" əsərində Zəngəzur ərazisini "Sisakan", "Sünik", eləcə də "Sünestan" adlandırmışdır.

Erməni "alimləri" "Zəngəzur" sözünün mənasını iki anlamda izah etməyə çalışırlar. "Zanqe", yaxud "Zanqa" - "mağara" və "Zur" - "bərk səslənən". Guya ki, Zəngəzurda çoxlu kahalar və mağaralar vardır və bu mağaralar çox bərk əks-səda verir.

Əslində bu cür "izah" erməni yalanının əks-sədasından başqa bir şey deyildir. Əvvəla ona görə ki, dünyanın hansı dağlıq ərazisində mağara, yaxud kaha yoxdur, o mağara və kahalar səsə əks-səda vermir? Bəs niyə dünyanın hər hansı bir ölkəsində, eləcə də ermənilər yaşayan başqa yerlərdə böyük bir regiona "bərk səslənən mağara" adı vermirlər?

İkincisi, axı, Zəngəzurda o qədər də çox mağara yoxdur, əksinə, çoxlu sıldırım qayalı, başı qarlı dağlar, dərin dar dərələr, sıx meşələr, kollu yamaclar və çiçəkli alp çəmənlikləri vardır. Erməni alimləri isə yalnız mağaraları görüblər?!

İzahı çox sadədir: ermənicə nə dağ, nə dərə, nə də çəmən sözləri "Zanqe", yaxud "Zanqa" kimi səslənmir.

Nisbətən abırlı erməni alimləri bir qədər həqiqətə yaxın gələrək "Zəngəzur" sözünü "Zanqe+dzor", yəni "Zəngi dərəsi" anlamında izah etməyə çalışırlar. Bu izahın birinci hissəsi həqiqətə yaxındır. Lakin erməni mənbələrində erməni mənşəli termin ("dzor" - ermənicə "dərə" deməkdir) kimi vurğulamağa cəhd göstərildiyinə baxmayaraq, əslində "Zəngəzur" toponiminin nə ermənilərə, nə də onların "dzor" sözünə heç bir dəxli yoxdur. Ermənilər özləri də heç vaxt "Zəngəzur" sözünü Zanqedzor şəklində işlətməyiblər.

Zəngəzur sözünün ermənicəyə dəxli olmadığını daha bir fakt da sübut edir. Hazırkı Ermənistanın inzibati ərazi bölgüsündə Zəngəzur adlı ərazi yoxdur. Bu bölgəni Ermənistanda Sünik mərzi adlandırırlar. Sovet hakimiyyəti illərində Zəngəzurun özü kimi adına da iddia edən ermənilər hazırda faktiki olaraq Zəngəzur termininindən imtina etmişlər.



*MUSA URUD,*
*Millət vəkili*

Bu toponimin "Səngi-Sur" formasında izahı da, hər hansı bir elmi əsasa malik olmasa da, maraq doğurur. Belə ki, fars dilində "səng" - daş, qaya, ərəbcə isə "sur" sözü silsilə divar, qala mənasındadır.

Zəngəzur sözü bu anlamda başdan-başa, daşlı, qayalı yer, daşların qala divarları kimi düzüldüyü ölkə mənasını verir.

Fikrimizcə, "Zəngəzur" toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən Zəngi tayfalarının adı və ərəblərin bu ərazilərə gəlişi ilə bağlıdır.

Ərəbcə "sur" daş-divar, qala, bürc deməkdir. Bu bölgənin çox döyüşkən və azadlıq sevən əhalisi ərəblərə qarşı axıradək mübarizə aparmış, şübhəsiz ki, bu illərdə onlarca qalalar, istehkamlar tikərək, eləcə də, bu yerlərə xas olan təbii istehkamlardan düşmənə qarşı mübarizə vasitəsi kimi istifadə etmişlər.

Ömrünün sonunadək ərəb xilafətinə qarşı ardıcıl, amansız mübarizə aparmış Babəkin Bəzz qalası yeniləndən sonra Darvazatəpə dağında yerləşən Şəki qalasına gəlməsi və məhz Zəngəzurdakı Şəki qalasının hakimi Saklı Sumbat tərəfindən tutularaq ərəblərə təslim olunması epizodu da bu ərazilərin o dövrdə geniş döyüş meydanı olduğunu və Zəngəzurun ən sonda, həm də Sumbat kimilərin xəyanəti nəticəsində yenildiyini təsdiq edən tarixi faktlardır.

Məlum olduğu kimi, Zəngi tayfaları tarixdə görkəmli qoşun başçıları və dövlət xadimləri ilə məşhur olan bir türk boyudur. Zəngi tayfalarının ən qədim yaşayış məskənlərindən biri Cənubi Azərbaycandakı Zəncan şəhəridir. Bu şəhərin adını farslar "Zənqən" ("ən" farsca çoxluq bildirən şəkilçidir.) kimi tələffüz edirlər. Ərəblərin bu ərazilərə gəlişi ilə bağlı "q" səsinin "c" səsi ilə əvəzlənməsi nəticəsində yazılı mənbələrdə şəhərin adı Zəncan kimi qeyd olunmağa başladı.

Zəngi tayfalarının ana vətəni Orta Asiya, daha konkret desək, indiki Özbəkistan əraziləridir. Zəngi tirəsi hal-hazırda da Özbəkistanda yaşayır və burada zəngi adı ilə bağlı çoxlu toponimlər indi də qalmaqdadır (Zəngi, Zəngitəpə, Zəngərik və s.).

Zəngilər bizim eranın əvvəllərində daha geniş areala səpələnməyə başladılar. Qazaxıstana, Əfqanıstana, İrana və Qafqaza gələn zəngilər məskunlaşdıqları yerlərdə öz adları ilə bağlı şəhərlər, kəndlər salmağa, öz adlarını çaylara, dağlara, dərələrə verməyə başladılar.

Zəncan və Zəngəzur adından savayı, zəngilərlə bağlı onlarca toponim saymaq olar: Türkiyədə - Ərzincan, Gürcüstanda - Zəngişamlı, Zəngənə, Azərbaycanda - Zəngilan, Zəngəran (Yardımlı rayonu), Zəngənə (Sabirabad rayonu), Zəngişalı (Ağdam rayonu), Zəngidərə çayı (Qobustan rayonu), Zəngi çayı (İsmayıllı rayonu), İrəvan mahalında - Zəngibasar, Zəngilər, Zəngili, Zəngi çayı kimi "zəngi" komponenti ilə bağlı toponimlərin olması bu toponimin məhz geniş arealda yaşamış, bir yerdən başqa yerə köçmüş böyük və qüdrətli bir tayfanın adı ilə bağlılığından xəbər verir.

Tarixdən məlumdur ki, Zəngi tayfaları orta əsr Azərbaycan Atabəylər dövlətində yuxarı zümrədə təmsil olunmuş, sonra isə Səfəvilər dövlətinin yaranmasında və inkişafında yaxından iştirak etmişlər. Məhz zəngilərin indiki Zəngəzur ərazilərinə köçü də Atabəylər dövründə başlamış, Səfəvilərin hərbi yürüşlərində isə daha da güclənmişdir.

Şah İsmayıl Xətainin yaratdığı qüdrətli Səfəvilər səltənətinin təkamülündə və güclənməsində qayı oğuzların bir boyu olan, igidliyi və cəsurluğu ilə seçilən Zəngi tayfalarının böyük rolu olmuşdur.

Orta əsr tarixi mənbələrinin ("Kitabi-Dədə Qorqud" (VII əsr) Mahmud Qaşğari (Divani Lüğəti-it-Türk (XI əsr)), Rəşid əd Din (Oğuznamə (XIV əsr), Əbdülqazi (Şəcəreyi-Tərakimə (XVII əsr) şəhadətinə görə oğuzlar 24 tayfaya bölünür ki, onların da ən məşhurlarından biri qayı (kayıq) boyudur.

Qayı türklərinin məşhur qəbilələri bunlardır: Qacar, avşar, zülqədər, zəngənə, çoban, baharlı, padar, ustaclı, lək, xəlilli, sorsor, şəfəq və s. Bu qəbilələrin bir çoxu Səfəvilər dövlətinin yaranmasında yaxından iştirak etmiş, qəbilə başçıları isə qızılbaşların hərbi və inzibati rəhbərliyində geniş təmsil olunmuşlar.

A.A.Bakıxanov zəngənə, xəlilli, ustaclı, qacar, kəngərli, xələc, qaramanlı, çıraqlı, təkəli, şamlı tayfalarının adlarını çəkmiş, onların türk tayfaları olduğunu və Azərbaycanın müxtəlif bölgələrində məskunlaşdığını göstərmişdir.

Məhz Azərbaycan Atabəylər dövlətinin və daha sonra Səfəvilər xanədanının dövründə İrəvan, Çuxursəd, Ərzincan, Sisakan ərazilərində zəngənə oğuzlarının ictimai-siyasi fəallığının yüksəlməsi müşahidə edilməyə başladı. Bu dövrdən etibarən "zəngi(ə)" kökü ilə bağlı müxtəlif toponimlər və oronimlər bu arealda yayılmağa başladı.

Babək Xürrəmdinin ərəb xilafəti ilə mübarizəsi illərindən ərəblərə yaxşı tanış olan Sisakan mahalı, bu ərazinin dağlıq, qayalıq, təbii qala, divarı xatırladan silsilə daşlardan ibarət landşaftı ərəb səyyahlarının və alimlərinin diqqətində müdafiə istehkamı-qala kimi qalmışdır.

Eyni zamanda yaşayış məntəqələrinin demək olar ki, hamısı qalalar şəklində tikildiyindən zəngi tayfalarının geniş arealda yayıldıqları bu dağlıq ərazini ərəb səyyahları Zəngisur - zəngilərin qalası adlandırmaqda tamamilə haqlı idilər. Sur, sür sözü (eləcə də sürü, sürəkli, sürüşmək sözlərinin kökündəki "sür") ərəb dilində silsilə divar, daş hasar, qala mənasını daşıyır.

Kiçik Qafqaz sıra dağlarının davamı və ən hündür dağ silsiləsi sayılan, daş zəncir kimi ta Qarabağ yaylasına qədər uzanan, dar dərələri, keçilməz yamacları, qorxunc sıldırımları, sərt qayaları ilə təbii bir istehkamı, qala divarlarını xatırladan, Zəngi türklərinin at oynatdığı bu dağlıq mahalın Zəngəzur adlandırılması həm tarixi-coğrafi, həm etnoqrafik, həm də məntiqi mənada tamamilə doğrudur.

Məlum olduğu kimi, "Zəngəzur" termini bir toponim kimi yazılı mənbələrdə XIV əsrdən məlumdur. Bu dövrdə isə təkcə Zəngəzurda deyil, eləcə də bütün Qafqazda qüdrətli türk-müsəlman ruhu hakim idi.

Zəngəzur ərazisində xeyli sayda sur (zür) topomorfantı ilə bitən digər toponimlərin də olması və bu kəndlərin demək olar ki, hamısının dağlarda və sıldırım qayalıqlarda yerləşməsi (Təkəzür, Ərcəzür, Gecəzür, Dərməzür, Astazur, Əynəzur, Goranzur və s.) faktı da Zəngəzur adının məhz dərə ilə deyil, dağla, divarla, qala ilə bağlılığını bir daha sübut edir.

Bütün tarixi mübarizələrlə, yerli və gəlmə hakimlərin ağalıq iddialarından yaranan irili-xırdalı döyüş səhnələri ilə zəngin olan dağlıq bir ərazidə yaşayış məntəqələrinin dərədə deyil, dağlarda, özü də təbii istehkamlara yaxın yerlərdə salınması məqsədə uyğun idi və yuxarıda adlarını sadaladığımız kəndlərin hamısı belə bir landşaftı olan ərazidədir.

Digər tərəfdən, Zəngəzurun təbiəti - qarlı, sərt şaxtalı qışı və kifayət qədər günəşli yayı tələb edir ki, yaşayış məntəqələri dərədə deyil, dağ döşündə, qar uçqunu basmayan, sel, tufan tutmayan yerlərdə, digər kəndlərlə nəqliyyat, səs və görüntü əlaqəsi yaratmaq üçün həyati və strateji baxımdan əlverişli olan yerlərdə salınsın.

Zəngəzurun adı da, özü də bizə məxsusdur. Min illər öncə bizim ulu babalarımız bu torpaqları əkib-becərmiş, abadlaşdırmış, kəndlər, şəhərlər salmış, Vətən etmişlər. Son yüzilliklərki qısa fasilələr istisna olmaqla bu torpaqlarda həmişə bizim xalqımız yaşamış və hökm etmişdir.

Sovet hökuməti tərəfindən Zəngəzura qarşı törədilmiş qəsd və tarixi ədalətsizlik həm də Azərbaycanın və türk coğrafiyasının ərazi bütövlüyünü pozmuşdur.

...Cənab Ali Baş Komandan İlham Əliyevin iradəsi ilə tarixi geri dönüş, ədalətin bərpası zamanı başlamışdır.

...İndi dünya sularında üzərində cənab İlham Əliyevin imzası olan "Zəngəzur" tankeri üzməkdədir.

...İndi Şərqi Zəngəzur iqtisadi rayonu sürətlə qurulmaqdadır, Zəngəzur dəhlizinin açılması və coğrafi cəhətdən əlaqəsi kəsilmiş böyük Türk dünyasının bütövlüyünün bərpası tarixin reallığına çevrilməkdədir.

...Bakıdan çıxan sürət qatarının Zəngəzurdan keçərək Naxçıvana və Qarsa gedəcəyi gün o qədər də uzaqda deyildir!

...Biz Şərqi Zəngəzura qayıtmışıq!

...Qərbi Zəngəzura da gedəcəyik. Hansı gün və hansı nəqliyyat vasitəsi ilə gedəcəyimizi isə Ali Baş Komandan söyləyəcəkdir!

Zəngəzur Azərbaycandır!

# İnkişafın əsas göstəricilərindən biri

## Vətəndaş cəmiyyətinin rolu

*Nicat*

İnkişaf etmiş dövlətlərin əsas göstəricilərindən biri, bəlkə də birincisi vətəndaş cəmiyyətidir. Müxtəlif sahələrdə fəaliyyət göstərən şəxslərin bir yerdə toplaşdığı, bu və ya digər məzmunu əhatə edən maraqları özündə ifadə edən cəmiyyətlər könüllü şəkildə yaradılır. Bu sahədə elmi araşdırmalar edən mütəxəssislər vətəndaş cəmiyyətini belə xarakterizə edirlər: "Dövlət strukturlarından kənarda yaranaraq ictimai həmrəyliyi idarə edir və könüllü, təmənnasız fəaliyyət göstərir". Vətəndaş cəmiyyəti deyildikdə yalnız həmin cəmiyyətə daxil olan şəxslərin deyil, onlarla tamamilə eyni dərəcədə həm də digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi başa düşülür.

**Vətəndaş cəmiyyəti - hüquqi dövlət formalaşmasında əsas amil**

Hüquqi dövlətin formalaşması üçün vətəndaş cəmiyyətinin inkişaf etməsi olduqca gərəklidir və qaçılmazdır. Məhz bu səbəbdən də vətəndaş cəmiyyəti, onun inkişaf etdirilməsi hər bir dövlət üçün olduqca maraqlıdır. Azərbaycanda da vətəndaş cəmiyyəti istiqamətində xeyli sayda tədbirlər həyata keçirilib, işlər görülüb. Bu sahənin daha da inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bunun nəticəsidir ki, bu gün ölkəmizdə qeyri-hökumət təşkilatlarının yaradılması, fondlar və ictimai birliklərin fəaliyyətlərinin səmərəli şəkildə təşkil edilməsi üçün dövlət tərəfindən hər bir şərait yaradılıb.




**Cəmiyyətin formalaşmasına və inkişafına səbəb olur**

Təsadüfi deyildir ki, vətəndaş cəmiyyətində QHT hərəkatının gücləndirilməsi həm vətəndaş cəmiyyətinin formalaşmasına, həm də inkişafına müsbət təsir edir. Elə bu, həm də bütün digər məqamlarda dövlət quruculuğu dövlətin daha da gücləndirilməsində və inkişafında, beynəlxalq aləmdə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayır. Bununla paralel olaraq onu da qeyd etmək lazımdır ki, QHT-lərin yaradılması və fəaliyyətlərinin səmərəli təşkil olunmasına şəraitin yaradılması təhsil, tibb, mədəniyyət və digər bir çox sahələrdə mövcud olan problemlərin işıqlandırılmasına xidmət edir.

**Real nümunələr üçün tarixə ekskurs**

Sadalananların real nəticəsinin həm Vətən müharibəsi dövründə, həm də ondan sonrakı dövrdə hər birimiz əyani şəkildə şahidinə çevrilmiş olduq. Ön cəbhədə ağır döyüşlər getdiyi bir vaxtda ikinci böyük məsuliyyət həm də arxa cəbhədə döyüşənlərin üzərində idi. Hər kəs yaxşı xatırlayır ki, düşmən hər vəchlə saxta, təhrif olunmuş məlumatları, dezinformasiyaları paylaşaraq dünya ictimaiyyətinin diqqətini yayındırmağa çalışırdı. Etiraf etmək lazımdır ki, saxta məlumatlar bəzən elə dəqiqliklə hazırlanır ki, sadə insanlar üçün yalanı doğrudan ayırd etmək bir xeyli çətinləşir. Elə buna görə də dəqiq, qərəzsiz, etibarlı mənbələrdən əldə edilən, ələlxüsus da rəsmi məlumatların ictimaiyyətə çatdırılması çox önəmli və zəruridir. Azərbaycan tarixinə qızıl hərflərlə yazılan həmin müddət ərzində vətəndaş cəmiyyətinin nümayəndələri həqiqətən də əsl peşəkarlıq ortaya qoymuş oldular. Hər kəs "Dəmir yumruq" ətrafında bir oldu, birləşdi. Həm sadə insanlar, həm xaricdə yaşayan həmvətənlərimiz, həm də vətəndaş cəmiyyətinin bütün nümayəndələri bir yerdə düşmənə qarşı mübarizə apardıq. Azərbaycan xalqının öz dövlətinin ətrafında sıx birləşməsi isə yalnız bir nəticə verə bilərdi - QƏLƏBƏ qazanmaq. Verdi də. İllərdir həsrətində olduğumuz torpaqların işğaldan azad edilməsi ilə nəticələnən qələbənin əldə olunması üçün nə qədər mübarizə apardıqsa, müharibədən sonra Azərbaycanın regionda yaratdığı yeni reallıqlar, dədə-baba yurdlarımızda apardığımız yüksək səviyyəli bərpa-tikinti-quruculuq işlərinin dünya ictimaiyyətinə çatdırılmasında da ən az o qədər səy göstərməliyik, çalışmalıyıq.

**İndi bir yol var: yalnız irəli**

Bütün tarixi faktlar, nümunələr vətəndaş cəmiyyətinin nə qədər önəmli olduğunu bir daha ortaya qoymuş, təsdiqləmiş olur. Həm indiki, həm də qarşıdakı dövr üçün yeni uğurlar qazanmaq üçün ölkəmizdə fəaliyyət göstərən bütün ictimai qurum və təşkilatlar, QHT-lər daha da inkişaf etməli, bütün mövcud imkanları daxilində çalışmalıdırlar.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti üzrə hazırlanmışdır

# Hədəf - daxili təminatı 100 faizə çatdırmaqdır

## Ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi üçün fəal və ardıcıl iş



**Prezident İlham Əliyev: Hesab edirəm ki, gələcəkdə Qarabağda və Şərqi Zəngəzurda yetişdiriləcək məhsullar, o cümlədən ərzaq təhlükəsizliyimizin tam təmin edilməsində bizə böyük kömək göstərəcək**

*Mübariz ABDULLAYEV*

Hazırda dünyada cərəyan edən arzuolunmaz proseslər, o cümlədən də Rusiya-Ukrayna müharibəsi qlobal ərzaq təhlükəsizliyi üçün ciddi təhdidlər yaradıb. İki böyük ərzaq məhsulları istehsalçısı olan ölkənin müharibəyə cəlb olunması qlobal ərzaq bazarının təchizat zəncirini qırıb, istehlakçılara tələb olunan qədər məhsul çatdırılmır. Tələblə təklif arasında kəskin disbalans qıtlığa və inflyasiyaya yol açır. Artıq inkişaf etmiş ölkələrdə belə bu təsirlər açıq şəkildə hiss olunur və inflyasiya ikirəqəmli səviyyəyə yüksəlib.

Dünyadakı belə vəziyyət uğurlu siyasət sayəsində qlobal iqtisadiyyata sıx inteqrasiya olunan Azərbaycana da təsirsiz ötüşmür. Bu barədə Prezident İlham Əliyev avqustun 12-də İsmayıllı rayonunun Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibəsində ətraflı bəhs edib. "Ərzaq mallarının qiymətinin qalxması da Azərbaycana bir növ, - əgər belə demək mümkündürsə, - idxal olunub. Çünki biz hələ də özümüzü tam, yəni, 100 faiz əsas ərzaq məhsulları ilə təmin edə bilmirik. Ancaq bu istiqamətdə ardıcıl işlər aparılır", - deyə dövlətimizin başçısı vurğulayıb.

**Özünütəminat səviyyəsinin yüksəldilməsi**

Azərbaycanda daxili istehsalın genişləndirilməsi yolu ilə ölkənin ərzaq təminatının möhkəmləndirilməsi yeni bir məsələ deyil. Prezident İlham Əliyev hələ bir neçə il bundan əvvəl ərzaq təhlükəsizliyini ölkənin milli təhlükəsizliyinin mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirdiyini bəyan etmiş və buna nail olmaq üçün daxili istehsalın genişləndirilməsi ilə bağlı konkret tapşırıqlarını vermişdi. İndiyədək dövlət başçısının imzaladığı sənədlər əsasında respublikamızda ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsini hədəfləyən bir neçə Dövlət Proqramı qəbul olunaraq onların icrası uğurla təmin edilib. Göstərilən siyasi və maddi dəstək tədbirlərinin məntiqi nəticəsi olaraq respublika üzrə müxtəlif növ ərzaq məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artıb. Bu, ölkəmizdə ərzaq məhsulları ilə özünütəminat səviyyəsinin yüksəlməsində də nəzərə çarpır. Artan qlobal gərginliklər fonunda Azərbaycanda bir sıra ərzaq məhsullarına olan daxili tələbatın tam şəkildə yerli istehsal hesabına qarşılanmasına nail olunub ki, bu da böyük uğurdur. Götürək ərzaq təminatında əsas pozisiyalardan sayılan heyvandarlıq seqmentini. Keçmiş sovet dönəminə nəzər salsaq, görərik ki, bu sahə respublikamız üçün ənənəvi olmayıb - ət və ət məhsullarına tələbat böyük həcmdə idxal hesabına qarşılanıb. Müstəqillik illərində görülən tədbirlərin nəticəsində isə respublika üzrə ət məhsulları ilə daxili təminat səviyyəsi 90 faizi ötüb. Bundan başqa, Azərbaycan artıq quş ətinə olan tələbatın 80 faizini, süd məhsullarına tələbatın 85 faizini yerli istehsal hesabına qarşılayır. Ölkəmizdə, həmçinin daxili tələbatı ödəyəcək qədər meyvə-tərəvəz istehsal olunur, bu sahədə, hətta müəyyən həcmlərdə ixrac potensialımız da yaranıb.

Qarşıya qoyulan hədəf isə ölkə daxilində ərzaq məhsulları istehsalının artırılmasına nail olmaqdır. Prezident İlham Əliyev növbəti 3-5 il ərzində respublikamızda müxtəlif pozisiyalar üzrə daxili tələbatın yüz faiz yerli istehsal hesabına qarşılanacağına əminliyini diqqətə çatdırıb. "Bildiyiniz kimi, bu gün ərzaq təhlükəsizliyi ilə bağlı dünyada çox böyük narahatlıq var. O cümlədən Azərbaycan da bu istiqamətdə fəal iş aparır. Görülmüş və görüləcək işlər nəticəsində biz özümüzü bu sahədə də təmin etmiş ölkəyə çevirəcəyik və ərzaq təhlükəsizliyi məsələləri, əminəm ki, Azərbaycanda maksimum dərəcədə təmin olunacaq", - deyə dövlətimizin başçısı vurğulayıb.

**Taxılla özünütəminat səviyyəsinin 80 faizə çatdırılması**

Azərbaycanda ərzaq təhlükəsizliyi üzrə ən narahatlıq yaradan istiqamətlərdən biri taxıl pozisiyasıdır. Milli mətbəximizdə ənənəvi olaraq çörəkdən çox istifadə olunsa da, ölkədə buğda istehsalı tələbatdan geri qalır. Rəsmi statistikaya görə, Azərbaycanın illik buğda tələbatı 3,5 milyon tondur. Respublikamızda buğdaya olan tələbin 40 faizi idxal hesabına ödənilir. İdxalda ən böyük paya 80 faizlə Rusiya sahib idi. Qazaxıstan da buğda idxal etdiyimiz ölkələr siyahısında olsa da, Rusiya ilə müqayisədə kiçik çəkiyə malik idi. Bütövlükdə, respublikamızın illik buğda idxalı 1 milyon tondan çoxdur. Yuxarıda sadalanan xarici amillər fonunda respublikamıza taxıl idxalı azalsa da, ödəmələrdə artım müşahidə edilir ki, bu da yüksək qiymətlərlə bağlıdır. 2022-ci ilin yanvar-may ayları ərzində Azərbaycana 124 049,4 ABŞ dolları dəyərində 355 625,06 ton buğda idxal edilib. Təhlillər göstərir ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkəyə idxal edilən buğdanın dəyəri 24,3% artıb, həcmi isə 9,3% azalıb. Qeyd edək ki, bu ilin ilk beş ayı ərzində buğda idxalı Azərbaycanın ümumi idxalının 2,42%-nə bərabər olub.

Müsahibədə də bildirildiyi kimi, indiki şəraitdə söhbət yalnız taxılın qiymətinin bahalaşmasından getmir. Məsələ burasındadır ki, mövcud geosiyasi gərginliklər fonunda taxılın idxalını da asanlıqla həyata keçirmək mümkün deyil. Bir çox ölkələr fiziki cəhətdən öz əhalisini buğda ilə, taxılla təmin edə bilmirlər. Azərbaycanın belə çətin şəraitdə də taxıl idxalını ənənəvi qaydada davam etdirdiyini bildirən Prezident İlham Əliyev vurğulayıb: "Ancaq Azərbaycanda bu sahədə heç bir problem yoxdur. Biz ənənəvi olaraq taxılı da, gübrəni də Rusiyadan alırıq. Rusiyalı tərəfdaşlarımızla əldə edilmiş razılaşmalar nəticəsində Azərbaycana istədiyimiz qədər həm gübrə, həm taxıl ixrac edilir və ediləcək. Gübrəyə gəldikdə isə, bildiyiniz kimi, biz özümüz də artıq gübrə istehsalçısı olmuşuq və hətta karbamid gübrəsini ixrac edirik. Amma digər gübrələr Azərbaycana idxal olunur".

Taxıl pozisiyası üzrə həm əkin sahələrinin genişləndirilməsi, həm də intensiv metodların tətbiqi ilə məhsuldarlığın artırılması nəzərdə tutulur. Prezident İlham Əliyev ölkədə taxıl istehsalının artırılması ilə bağlı hədəfləri diqqətə çatdıraraq bildirib: "Özümüzü buğda ilə təminetmə əmsalı Azərbaycanda bu ilin əvvəlinə 62 faiz idi. Məhz bu məqsədlə xüsusi proqram işlənib hazırlandı, yeni növ subsidiyaların tətbiq edilməsinə start verildi və bunun nəticəsində əminəm ki, ərzaqlıq buğdanın Azərbaycanda istehsalı kəskin artacaq. Ancaq bu, vaxt tələb edəcək. Mən hesab edirəm ki, təqribən 3-4 il ərzində biz özümüzü ərzaqlıq buğda ilə 80 faiz səviyyəsində təmin edə bilsək, bu, çox böyük nəticə olacaqdır".

Qeyd edək ki, elə bu günlərdə Prezident İlham Əliyev "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərman imzalayıb. Sənədə əsasən fermerlərə hər hektara görə əkin subsidiyasından əlavə məhsul subsidiyasının verilməsi də nəzərdə tutulur. Fermerlərimiz bundan sonra Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verdikləri ərzaqlıq buğdaya görə əlavə olaraq məhsul subsidiyası alacaqlar. Bununla yanaşı, bu Fərman ərzaqlıq buğdanın əkilməsi üçün müasir suvarma sistemlərinin tətbiqini təşviq edəcək. Digər tərəfdən, ərzaqlıq buğda üçün minimum alış qiyməti müəyyən olunacaq. Bununla da "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərman ölkədə ərzaqlıq buğdanın istehsalını daha da stimullaşdıracaq, ərzaq təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verəcək.

Artıq müvafiq qurumlar Fərmanda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi istiqamətində fəaliyyətə başlayıblar. Kənd Təsərrüfatı Nazirliyində Fərmandan irəli gələn məsələlərin həlli ilə əlaqədar ərzaqlıq buğda istehsal edə biləcək potensial təsərrüfatların müəyyənləşdirilməsinə start verilib. Bu günlərdə qurum ərzaqlıq buğda istehsalının stimullaşdırılması məqsədilə müqavilələrin bağlanılmasını təmin etmək üçün fermerlərə müraciət edib. Bildirilir ki, sahəsi 50 ha-dan böyük, ərazisi bir massivdə yerləşən, pivot suvarma sistemləri qurulmuş və ya qurulması planlaşdırılan təsərrüfatların rəhbərləri müqavilə bağlamaq üçün Kənd Təsərrüfatı Nazirliyinə müraciət edə bilərlər.

Taxıl əkilən sahələrdə yüksək məhsuldarlığa nail olunması üçün aqrotexniki qaydalara əməl olunması vacib şərtlərdən biridir. Qeyd edək ki, mineral gübrələrin elmi əsaslarla verilməsi taxılın qida maddələrinə olan tələbatını ödəyir və buna görə də, müasir dövrdə taxıl eyni tarlada 2-3 il fasiləsiz əkilir. Belə hallarda taxıldan sonra yenə taxıl əkiləcək sahənin hazırlanmasına kövşənliyin üzlənməsindən başlanmalıdır. Hazırda bölgələrdə taxıl biçini başa çatmış sahələrdə yay şumunun aparılması davam edir. Avqustun 1-dək ölkə üzrə 526748 hektar sahədə yay şumu aparılıb. Yay şumu aparılan sahələr növbəti il üçün proqnozlaşdırılan taxıl əkini sahələrinin 58.4 faizini təşkil edir. Biçilmiş sahələrdə ən çox yay şumu Bərdə (96.9%), Sabirabad (96.6%), Yevlax (96.1%), Hacıqabul (94.4%), Ucar (89.2%), Neftçala (84.4%) və Qobustan (84,1%) rayonlarında aparılıb.

**Qarabağda yeni torpaqlar dövriyyəyə cəlb olunur**

Azərbaycan 44 günlük Vətən müharibəsində təxminən 11 min kvadratkilometr ərazisini işğaldan azad etdi. İndi həmin ərazilərdə də ərzaq məhsulları istehsalı imkanlarından istifadə olunmasına başlanıb. Prezident İlham Əliyev bildirib ki, azad edilmiş ərazilərdə həm kənd təsərrüfatı, həm maldarlıq, həm bitkiçilik üçün çox münbit iqlim və təbii şərait var. Biz, əlbəttə ki, maksimum dərəcədə bundan səmərəli şəkildə istifadə etməliyik. "Biz artıq azad edilmiş torpaqlarda da əkin-biçinlə məşğuluq. Mənim göstərişimlə vaxt itirmədən əkin işləri aparılmışdır, minalardan təmizləmə işləri aparılmışdır. Hesab edirəm ki, gələcəkdə Qarabağda və Şərqi Zəngəzurda yetişdiriləcək məhsullar, o cümlədən ərzaq təhlükəsizliyimizin tam təmin edilməsində bizə böyük kömək göstərəcək", - deyə dövlət başçısı vurğulayıb.

İşğaldan azad edilmiş ərazilərin ərzaq məhsulları istehsalı imkanlarından həm heyvandarlıq, həm də bitkiçilik seqmentləri üzrə istifadə edilir. Ötən il olduğu kimi, 2022-ci ildə də bəhs olunan ərazilərdəki yaylaqlara mal-qaranın və arı ailələrinin köçü uğurla təmin edilib. Kənd Təsərrüfatı Nazirliyindən "Yeni Azərbaycan"a verilən məlumata əsasən, cari il iyulun 1-dək azad olunmuş ərazilərdəki yaylaqlara ümumilikdə 329166 xırdabuynuzlu, 23794 iribuynuzlu, 831 digər heyvanın köçürülməsi təmin edilib. Ümumilikdə, Kəlbəcər və Laçın yaylaqlarına 940 qoyunçuluq təsərrüfatı köç edib. Bundan başqa, cari ildə Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarındakı yaylaqlara 1101 arıçı tərəfindən 61045 arı ailəsi aparılıb. 2022-ci il yaylaq mövsümündə 17406 şəxsin fermer təsərrüfatlarının tərkibində azad olunmuş ərazilərdəki yaylaqlara getməsinə icazə verilib.

İlkin dəyərləndirmələrə görə Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərdə təxminən 200 min hektar əkinə yararlı torpaq fondu var. Bunun 100 min hektarının bu ilin sonuna qədər minalardan tam təmizlənməsi gözlənilir. Bu da imkan verəcək ki, işğaldan azad edilmiş ərazilərdə həm taxıl, həm də digər uyğun bitkilərin əkilib-becərilməsi həyata keçirilsin. Qeyd edək ki, cari ildə işğaldan azad edilmiş ərazilərdə 50 min hektar sahədə taxıl əkini həyata keçirilib və artıq məhsul tədarük olunub. Prezident İlham Əliyev əkin sahələrinin genişləndirilməsi ilə bağlı hədəfləri diqqətə çatdıraraq vurğulayıb: "Mən hesab edirəm ki, biz azad edilmiş torpaqlarda taxılçılıq üçün ən azı 100 min hektarı dövriyyəyə buraxmalıyıq və əlbəttə ki, bütün müasir aqrotexniki tədbirlərin görülməsi, o cümlədən suvarma məsələlərinin düzgün təşkil edilməsi şərtilə. Xüsusilə nəzərə alsaq ki, bizim əsas çaylarımız da erməni işğalına məruz qalmışdı. Mənfur düşmən bizi öz suyumuzdan da məhrum etmişdi. Bildiyiniz kimi, Tərtər çayının suyundan biz faktiki olaraq istifadə edə bilmirdik. Həkəri çayın suyundan, Bazar çayın suyundan istifadə edə bilmirdik. Bunlar, azad edilmiş torpaqlarda əsas çaylardır, amma o çayların sayı daha da çoxdur".

# Azərbaycan üzərindən Şimaldan Cənuba

*Mübariz FEYİZLİ*

Yaxın vaxtlarda Azərbaycan-İran-Rusiya hökumət rəsmilərinin üçtərəfli görüşünün keçiriləcəyi gözlənilir. Artıq görüşün gündəliyi də açıqlanıb. Üç ölkənin rəsmilərinin bir araya gələcəyi tədbirdə əsas müzakirə mövzusu Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi ilə bağlı olacaq. Bu barədə İranın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi bildirib. "İran-Azərbaycan-Rusiya arasında keçiriləcək üçtərəfli görüşdə tranzit və gömrük məsələləri, həmçinin Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi marşrutlarının şaxələndirilməsi, eləcə də İranın nəqliyyat naziri ilə Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat nazirinin görüşündə dəmir yolu terminalı, yeni sərhəd körpüsü layihələrinin son vəziyyəti nəzərdən keçiriləcək", - deyə səfir vurğulayıb.

**Ən qısa və sərfəli nəqliyyat dəhlizi**

Beynəlxalq daşımalarda dəhlizlərə verilən əsas tələblər yüklərin təyinat üzrə çatdırılmasına sərf olunan zamanın qısalığı, təhlükəsizlik, yaxşı infrastruktur, marşrut boyunca yerləşən ölkələr arasında koordinasiyalı fəaliyyət, xidmətlərin keyfiyyəti və əlbəttə ki, daşımaların mümkün qədər az xərclə başa gəlməsidir. Tam qətiyyətlə demək mümkündür ki, Azərbaycanın da qoşulduğu Şimal-Cənub dəhlizində bütün bu tələblər yüksək səviyyədə təmin olunur. Şimal-Cənub dəhlizi yükləri Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya daha qısa müddətə çatdırmağa imkan verir. Əgər sözügedən marşrut üzrə indiyədək yüklərin daşınması 6-7 həftəyə başa gəlirdisə, Şimal-Cənub dəhlizi bu müddəti yarıyadək azaltmağa imkan verir. Bəhs olunan nəqliyyat dəhlizinin uzunluğu 7200 kilometrdir. İlkin qiymətləndirilmələrə görə hər 15 ton yükün bütün xətt boyunca daşınması zamanı yük sahibləri 2500 dollar qənaət etmək imkanı qazanırlar. Bütün bu amillər də beynəlxalq səviyyədə Şimal-Cənub marşrutuna marağın artmasını şərtləndirir.

Xatırladaq ki, Şimal-Cənub dəhlizinin təməli 2000-ci il 12 sentyabr tarixində Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası Saziş əsasında qoyulub. Azərbaycan bu Sazişə 2005-ci ildə qoşulub. Ümumilikdə 13 ölkə - Azərbaycan, Belarus, Bolqarıstan, Ermənistan, Hindistan, İran, Qazaxıstan, Qırğızıstan, Oman Sultanlığı, Rusiya Federasiyası, Tacikistan, Türkiyə və Ukrayna sözügedən Sazişi ratifikasiya ediblər.

**Azərbaycanın fəal iştirakı**

Özünün yol-nəqliyyat infrastrukturunu yüksək səviyyəyə qaldırmağı və Avrasiyada önəmli nəqliyyat habına çevrilməyi hədəfləyən Azərbaycan Şimal-Cənub dəhlizinin formalaşmasında fəal iştirak edir. Prezident İlham Əliyev "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" 7 dekabr 2015-ci il tarixində ayrıca Sərəncam imzalayıb. İndiyədək bəhs olunan Sərəncamın icrası çərçivəsində Astara (Azərbaycan) - Astara (İran) dəmiryolu xəttinin birləşdirilməsi məqsədilə ölkəmizin ərazisində Astaraçay üzərindəki körpüyə qədər 8,3 km yeni xətt çəkilib. Astaraçay üzərində dəmiryol körpüsü inşa olunub, Astaraçay üzərində dəmiryol körpüsündən İran İslam Respublikası ərazisində tikilmiş yük terminalına qədər 1,4 km uzunluğunda yol çəkilib. Azərbaycan tərəfi Astarada (İran) 35 hektar ərazidə dəmir yolu stansiyasının tikintisini və yüklərin boşaldılması üçün terminalların inşasını öz üzərinə götürüb. Eyni zamanda, 28 mart 2018-ci il tarixində İran İslam Respublikası Prezidentinin Azərbaycana səfəri çərçivəsində "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında İran İslam Respublikası ərazisində Astara - Rəşt dəmir yolu hissəsinin tikintisinin maliyyələşdirilməsi haqqında Saziş" imzalanıb.

**Müxtəlif istiqamətlərə daşımalar**

Qeyd etdiyimiz kimi, gözlənilən üçtərəfli görüşün gündəliyində, həmçinin Şimal-Cənub marşrutunun şaxələndirilməsi ilə bağlı müzakirələrin aparılması da nəzərdə tutulub. Bu isə tam real hədəfdir. Məlumdur ki, Azərbaycanın ərazisindən Şərq-Qərb marşrutu keçir. Eyni zamanda, respublikamız Trans-Xəzər marşrutunun - Orta Dəhlizin fəal üzvlərindən biridir. Son vaxtlarda regiondakı geosiyasi gərginliklər fonunda hər iki marşrutla daşımalarda yüksək intensivlik müşahidə edilir. Respublikamızın üstünlüyü ondan ibarətdir ki, Şimal-Cənub marşrutu da daxil olmaqla bütün nəqliyyat dəhlizləri bir-biri ilə inteqrasiya edilib. Eyni zamanda, Azərbaycan respublikamızın ərzisindən keçməklə Naxçıvana, oradan da Türkiyə vasitəsilə Avropaya qədər uzanacaq Zəngəzur dəhlizinin açılmasına qətiyyətli siyasi iradə nümayiş etdirir. Beləliklə, Şimaldan Cənub istiqamətində daşınan yüklərin respublikamızın ərazisində digər beynəlxalq marşrutlara istiqamətləndirmək mümkün olacaq.




İran ərazisindəki imkanlar da Şimal-Cənub dəhlizinin şaxələndirilməsinə geniş imkanlar qazandırır. Bu ölkənin ərazisindən də Şimal-Cənub dəhlizini Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana və bu bölgə vasitəsilə Türkiyəyə birləşdirmək mümkün olacaq. Türkiyədən isə yüklər mövcud infrastrukturla Avropaya çatdırılacaq. Qeyd edək ki, 6 mart 2019-cu il tarixində İranda Şimal-Cənub dəhlizinin Qəzvin - Rəşt (175 km) sahəsinin rəsmi açılışı baş tutub. İranın şimalında yerləşən Gilan vilayətində təxminən 165 km uzunluğunda Rəşt-Astara dəmiryolunun tikilməsi ilə Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi tam aktivləşəcək. Mütəxəssislər Şimal-Cənub dəhlizinin funksionallığının təmin olunması baxımından İranın Çabahar limanının önəmini də yüksək dəyərləndirirlər. Çabahar coğrafi baxımdan Asiya, Avropa və Afrikanı birləşdirən bir limandır. Dünya əhalisinin 5 milyardı bu qitələrdə yaşayır və buradakı dövlətlər daim iqtisadi inkişafa can atır. İqtisadi inkişafı isə beynəlxalq əhəmiyyətə malik nəqliyyat yolları olmadan təsəvvür etmək mümkün deyil. Buna görə də Çabahar limanına Hindistan və Çinin sərmayə yatırmasını da təsadüfi hesab etmək olmaz. Çinin və Hindistanın inkişaf edən iqtisadiyyatı Avropaya yeni yolların açılmasını zərurətə çevirib. Bu baxımdan Şimal-Cənub dəhlizinin formalaşmasına xüsusi önəm verilir. Hindistanın Mumbai limanından yüklərin Çabahara, oradan isə Azərbaycan və Rusiya ərazisindən Avropaya daşınması mümkün olacaq.

# Yaşamağa dəyər!

## Azərbaycanın həyat standartları yüksək səviyyədədir

*Günel ABBAS*

Demoqrafik proseslər və immiqrasiya bir ölkədə yaşam standartlarının hansı səviyyədə olmasından xəbər verir. Ona görə də müvafiq qurumlar tərəfindən bu məsələlər nəzarətdə saxlanılır və məlumatlar ictimaiyyətlə paylaşılır. Dövlət Statistika Komitəsinin 11 avqust tarixli məlumatına əsasən, ölkə əhalisinin sayı ilin əvvəlindən 29418 nəfər və ya 0,3 faiz artaraq 2022-ci il iyul ayının 1-i vəziyyətinə 10185784 nəfərə çatıb. Əhalinin ümumi sayının 52,9 faizini şəhər, 47,1 faizini kənd sakinləri təşkil edib. Əhalinin tərkibində kişi və qadınların xüsusi çəkiləri isə dəyişməz qalıb. Cari ilin birinci yarısında Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 1215 nəfər gələn, Azərbaycandan isə 442 nəfər gedən qeydə alınıb. Qeyd olunub ki, miqrasiya saldosu ölkə üzrə müsbət 773 nəfər təşkil edib.

Ən yüksək yaşayış səviyyəsinə malik yerlərin və daha yaxşı standartlara malik yerlərin seçilməsi böyük əhəmiyyət kəsb edən meyarlar sırasındadır. Ölkəmizə yaşamaq üçün gələnlərin bu ölkədən gedənlərin sayından çox olmasının özünün də obyektiv səbəbləri var. Əvvəla, ölkəmizdə sosial rifah, sabitlik, asayiş qorunur. Region ölkələrinə və əhalinin həyat standartlarına nəzər saldıqda bu inkişafı görməmək çətin deyil. Statistikaya yenidən nəzər saldıqda ölkəni tərk edənlərin hər birinin şəxsi məsələlərlə əlaqədar olduğunu görə bilərik.

Azərbaycanda uzunmüddətli yaşamağa gələnlər bu qərarı əbəs yerə vermirlər. Əvvəlcə turist kimi ölkəmizə səyahət edənlər yaşam tərzini, şəhərlərdəki müasirliklə təbiiliyin vəhdətini müşahidə edirlər. Ən önəmlisi dövlət orqanları tərəfindən daim nəzarətdə saxlanılan asayişin və bütün mənfi hallarla yüksək səviyyəli mübarizə üsulları xaricdən gələnləri Azərbaycanda uzun müddət qalmağa sövq edir.

Həyat səviyyəsinin yüksək olduğu bir ölkədə iş imkanlarının da yaxşı olduğunu qeyd etmək lazımdır. İmmiqrasiya prosesində ölkə daxilində insanların bir-birinə olan hörmətinin də xüsusi əhəmiyyəti var. Turist kimi ölkəmizi ziyarət edənlərin əksəriyyəti yenidən öz ölkələrinə qayıtdıqda bu səmimiyyəti başqa heç bir yerdə görə bilmədiklərini xüsusi vurğulayırlar. Xaricdən gələnlərə qonaqpərvər yanaşmalar immiqrasiyanı sürətləndirən amillərdən biridir. Digər və ən önəmli səbəblərdən biri də Azərbaycanın özünəməxsus, dillər əzbəri olan kulinariyasıdır. Azərbaycan mətbəxinin dünya kulinariyasında öz çəkisi var. Müxtəlif bölgələrimizə xas olan xörəklər ölkəmizdən ayrılandan sonra da qonaqların xoş təəssüratda qalmasına və buraya yenidən qayıtmasına, uzunmüddətli yaşamasına şərait yaradır.



Təbii ki, önəmli faktorlar arasında gücünü dünyaya sübut etdiyimiz müzəffər Ordumuz da var. Bir ölkənin qorunması və Ordusu nə qədər güclüdürsə, orada yaşamaq daha rahat və arzuolunandır. Bu məqamda ölkəmizin digər region ölkələri ilə müqayisədə olduqca yuxarı səviyyədə olan iqtisadi gücünü qeyd etməsək, olmaz. Nəzərə almaq lazımdır ki, müharibədən çıxdıqdan 1- 2 il sonra heç bir ölkədə iqtisadi vəziyyət bu qədər yaxşı ola bilməzdi. Azərbaycan bu gün dünyada həm iqtisadi gücünü, həm də siyasi arenada söz sahibliyini qoruyan ölkədir. Siyasi, iqtisadi və hərbi proseslərin dünyada qəliz şəkildə cərəyan etdiyi zamanda xarici vətəndaşların Azərbaycan kimi bir ölkədə yaşamağı seçməsi təəccüblü deyil, əksinə onların özü üçün əlverişlidir.



# ABŞ və Rusiya BMT-nin çağırışına "hə" deyəcəklərmi?

## START müqaviləsindən imtina və yaxud qlobal təhlükəsizliyin "qızıl qaydası" təhlükədə

*Mübariz FEYİZLİ*

Hazırda artan geosiyasi gərginliklər, xüsusilə də Rusiya-Ukrayna müharibəsi fonunda beynəlxalq ictimaiyyəti narahat edən ən aktual məsələlərdən biri "Nüvə müharibəsi başlayacaqmı" sualı ilə bağlıdır. Artan narahatlıqlar fonunda aydın şəkildə etiraf olunur ki, nüvə müharibəsi heç bir dövlətə, hətta geniş arsenala malik ölkələrin özlərinə belə fayda gətirməyəcək, əksinə bundan bütün bəşəriyyət miqyası təsəvvür edilməyəcək qədər böyük ziyan çəkəcək.

Belə çətin şəraitdə dünyada nüvə dövlətlərinin sayı çox olsa da, nəzərlər əsasən iki supergüc dövlətə - Amerika Birləşmiş Ştatlarına və Rusiyaya dikilib. Bu da başadüşülləndir - bəhs olunan dövlətlər böyük nüvə potensialına malikdirlər. Səbəb həm də yalnız bu deyil. Məsələ burasındadır ki, ABŞ və Rusiyanın mövqeyi bir sıra məsələlərdə tamam əks-qütblərdə dayanır. Onlar dünyada nüfuz savaşı aparırlar, birbirləri ilə rəqabətdədirlər və bu rəqabət bir sıra hallarda açıq müstəviyə keçərək qarşıdurma səviyyəsinədək yüksəlir. Rusiya-Ukrayna müharibəsi iki supergüc dövlət arasında münasibətləri daha da sərtləşdirib. Müharibədə Rusiyaya qarşı formalaşan koalisiyanın "xaç atası" qismində məhz ABŞ çıxış edir. Bu ölkə Rusiyaya qarşı yalnız sanksiyalar tətbiq etmir, həm də müharibənin digər tərəfi olan Ukraynaya güclü silah təchizatı dəstəyi göstərir. Bu günlərdə ABŞ bəyan edib ki, bu ölkədən Ukraynaya nə qədər silah lazımdırsa, tədarük olunacaq. Bunun təsdiqi olaraq ABŞ Müdafiə Nazirliyi Ukraynaya daha 1 milyard dollarlıq yeni hərbi yardım paketinə icazə verib.

**START-ı kim xilas edəcək?**

Bu günlərdə Rusiya mətbuatında dünyanı, sözün əsl mənasında, lərzəyə gətirən məlumat yayıldı. Söhbət bu ölkənin ABŞ-la imzalanan strateji hücum silahlarının azaldılması və məhdudlaşdırılması tədbirləri haqqında müqavilənin (START - Strategic Arms Reduction Treaty) təftiş seqmentindən müvəqqəti imtina etməsindən gedir. Rəsmi dairələrdən gələn məlumatda Rusiyanın öz nüvə obyektlərini müvəqqəti qaydada təftişlərdən kənarda saxlayacağı bildirilir. Məlumatda belə bir addımın müvəqqəti xarakter daşıdığı vurğulansa da, nüvə fəaliyyətinin gizli davam etdirilməsi niyyəti ortadadır. Bu isə suallar, narahatlıqlar doğurmaya bilməz.

Xatırladaq ki, Rusiya ilə ABŞ arasında strateji hücum silahlarının məhdudlaşdırılması haqqında ilk müqavilə 1991-ci ilin iyulunda imzalanıb. Müqaviləyə əsasən hər iki ölkə nüvə başlıqlarının və onları daşıyan texnikanın ixtisarına dair üzərlərinə öhdəliklər götürüblər. 1992-ci ildə Belarus, Qazaxıstan və Ukraynanın sözügedən müqaviləyə qoşulmasını təsbit edən əlavə protokol imzalanıb. Sonrakı mərhələdə iki dövlət arasında daha bir neçə dəfə START müqavilələri imzalanıb. Sonuncu dəfə Rusiya və ABŞ arasında START müqaviləsi 2021-ci il 3 fevral tarixində yenilənib. Rusiya Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin yenilənmiş müqavilə ilə bağlı yaydığı məlumatda vurğulanır: "Fevralın 3-də Rusiya Xarici İşlər Nazirliyi və ABŞ Səfirliyi arasında Strateji Hücum Silahlarının Azaldılması və Məhdudlaşdırılması Tədbirləri haqqında Müqavilənin uzadılmasına dair müqavilənin qüvvəyə minməsi üçün lazım olan daxili prosedurların tamamlanması barədə nota mübadiləsi aparılıb. Müvafiq olaraq, bu müqavilə qüvvəyə minib. Beləliklə, müqavilə heç bir dəyişiklik və əlavə edilmədən 5 fevral 2026-cı il tarixinədək imzalandığı formada qüvvədə olacaq".

İndiyədək START müqaviləsi beynəlxalq səviyyədə qlobal təhlükəsizliyin "qızıl qaydası" kimi səciyyələndirilirdi. Burada həqiqət payı da yox deyil. İnsafən, həm Rusiya, həm də ABŞ qarşılıqlı informasiya mübadiləsini həyata keçirir, nüvə başlıqlarının və onları daşıyan texnikanın ixtisarı ilə bağlı öhdəliklərinə əməl edirdilər. Hər iki ölkədə beynəlxalq səviyyəli inspektorların nüvə obyektlərində təftişlər aparmalarına da hansısa əngəllər yaradılmırdı.

Belə görünür ki, Rusiya-Ukrayna müharibəsi ABŞ-la şimal qonşumuz arasında etimad limitini tamam tükədib. İş o yerə çatıb ki, 30 illik tarixə malik START müqaviləsindən imtina olunur. Bu geridönüş isə qlobal təhlükəsizliyin "qızıl qaydası"nın özünün ciddi təhdidlərlə üzüzə qalması anlamına gəlir. İndiyədək dünyanı nüvə təhlükəsindən xilas edən START-ı indi kim xilas edəcək?

**BMT-dən çağırış**

İki güclü nüvə dövlətinin münasibətlərinin açıq qarşıdurma səviyyəsinə yüksəlməsi qlobal miqyasda narahatlıqları pik həddədək artırıb. Dünya bu iki dövlətdən birinin hansısa formada nüvə düyməsini basacağından əndişələnir. İş o yerə çatıb ki, ABŞ-la Rusiya arasında qarşıdurmanın miqyasının genişlənməsindən yaranan narahatlıqlar Birləşmiş Millətlər Təşkilatı səviyyəsində də açıq mətnlə ifadə olub. Qurumun Baş katibinin rəsmi nümayəndəsinin müavini Farxan Xak təşkilatın Rusiya və ABŞ-ı strateji hücum silahları haqqında müqavilə üzrə bütün məsələləri həll etməyə və müfəttişləri nüvə obyektləri üzrə təftişlərə buraxmağa icazə verməyə çağırdığını bildirib. Xak vurğulayıb ki, ABŞ-la Rusiya arasında nüvə silahlarına nəzarət üzrə əldə olunan razılaşma dünyada sülhün, təhlükəsizliyin, nüvə silahının yayılmamasının, onun ixtisarının aparılmasının mühüm elementidir. "Hər iki ölkə bütün məsələləri həll etməli və müfəttişlərin öz işlərinə qayıtmalarına razılıq verməlidirlər", - deyə BMT rəsmisi vurğulayıb.

**Tərəflər "hazırıq" desələr də...**

"ABŞ Rusiya ilə strateji hücum silahları ilə bağlı 3-cü müqaviləni əvəz edəcək yeni silahlara nəzarət sistemini müzakirə etməyə hazırdır. Moskva birgə işə hazır olduğunu nümayiş etdirməlidir". Bu barədə ABŞ prezidenti Co Bayden BMT-nin Nüvə Silahlarının Yayılmaması haqqında Müqaviləsində iştirak edən ölkələrin konfransının açılışında deyib. "Bu gün mənim administrasiyam 2026-cı ildə başa çatan START-3-ü əvəz etmək üçün yeni silahlara nəzarət sistemi ilə bağlı dərhal danışıqlar aparmağa hazırdır. Rusiya nüvə silahlarına nəzarət üzrə ABŞ-la işi bərpa etməyə hazır olduğunu nümayiş etdirməlidir", - ABŞ-ın dövlət başçısının bəyanatında vurğulanır.

Rusiyanın rəsmi dairələrində də nüvə silahlarının məhdudlaşdırılmasının zəruriliyi ilə bağlı müxtəlif açıqlamalar verilməkdədir. Ancaq tərəflərin strateji hücum silahlarının məhdudlaşdırılması ilə bağlı danışıqlara hazırıq bəyanatları vermələrinə rəğmən, bunu inkar edən davranışlar da diqqətdən kənarda qala bilməz. Son günlərdə Rusiya rəsmilərindən ABŞ-ın ünvanına Zaporoyyedəki atom elektrik stansiyasına hücumlar həyata keçirən Ukraynaya dəstək verməklə bağlı ittihamlar səsləndirilir. Belə ittihamlarda xüsusi olaraq vurğulanır ki, sözügedən nüvə obyektinə hücumlar qlobal texnogen faciyəyə gətirib çıxarda bilər. Rusiya tərəfi, həmçinin ABŞ-a qarşı "bütün üçüncü ölkələrdən nüvə silahlarını geri qaytarmaq" tələbini irəli sürüb. Bildirilir ki, ABŞ-ın nüvə silahlarını digər ölkələrin ərazilərində yerləşdirməsi və saxlaması qəbuledilməzdir.

Nüvə ittihamları, həmçinin okeanın o tayından gəlməkdədir. Məsələn, Ağ Evin mətbuat katibi Karin Jan-Pyer bəyan edib ki, ölkəsi Rusiyanı Ukraynadakı nüvə obyektlərinin yaxınlığında hərbi əməliyyatları dayandırmağa və bu obyektləri Kiyevin nəzarətinə verməyə çağırır. Qarşılıqlı ittihamlardan da göründüyü kimi, iki supergüc dövlət START müqaviləsindən çox uzaqlaşıblar. Bizə isə nüvə düyməsinin heç vaxt basılmamasını arzulamaq qalır.

# İsti havalarda iş rejimi necə olmalıdır?

*Yeganə BAYRAMOVA*

Ölkə ərazisində bir neçə gündür ki, anomal hava şəraiti müşahidə olunur. Havaların isti keçməsi iş rejiminin necə olması ilə bağlı məsələnin aktuallaşmasına səbəb olub. Kəskin istilər olarkən açıq havada işləyən insanların təhlükəsizliyi məsələsi də gündəmə gəlir. Məlumdur ki, kəskin istilər olduqda günvurmaya məruz qalanların da sayı çoxalır.

Əmək Məcəlləsinin 233-cü maddəsinə əsasən, havanın temperaturu 41 dərəcə Selsidən çox olduğu hallarda açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılmalıdır. Belə hallarda işçilərin həyat və sağlamlığının mühafizəsi məqsədilə onlara sərinləşmək üçün imkan yaradılmaqla fasilələr verilməli və işəgötürənlə həmkarlar təşkilatının birgə qərarı əsasında fasilənin sayı, müddəti müəyyən olunmalı, eyni zamanda iş zamanı verilmiş fasilələr iş vaxtına daxil edilməlidir. Həmin fasilələr zamanı əmək haqqı işçilərin tarif maaşına görə ödənilməlidir. İş dayandırıldıqda boşdayanma vaxtının haqqının işçinin təqsiri üzündən baş verməyən boşdayanma kimi, tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilməsi təmin edilməlidir.

İsti havaların neçə gün davam edəcəyi ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyindən "Yeni Azərbaycan"a açıqlama verilib. Nazirliyin Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova bildirib ki, ölkə ərazisində müşahidə olunan isti hava şəraiti avqustun 20-dək davam edəcək. Onun sözlərinə görə, havanın maksimal temperaturunun Bakıda və Abşeron yarımadasında 35-39, bəzi yerlərdə 40, rayonlarda 35-40, Mərkəzi Aran və Naxçıvan MR-nin bəzi yerlərində 41-42, dağlarda isə 27-32 dərəcəyədək yüksələcək: "Avqustun 14-də ölkə ərazisində havanın temperaturu iqlim normasından 3.8 dərəcə çox olub. Belə ki, maksimal temperatur Bakıda və Abşeron yarımadasında 38.5, Aran rayonlarında isə 40.3 dərəcəyə çatıb. Aparılan çoxillik müşahidələrə görə, son illərdə Bakıda və Abşeron yarımadasında havanın maksimal temperaturu 2017-ci il avqustun 9-da 42.6 dərəcə qeydə alınıb".



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat katibi Fazil Talıblı bildirib ki, havanın temperaturu 41 dərəcədən çox olduğu halda açıq havada çalışan şəxslərin maaşları ödənilməklə iş dayandırılır: "Temperaturun 41 dərəcədən çox olduğuna dair Ekologiya və Təbii Sərvətlər Nazirliyindən xəbərdarlıq verildiyi halda, biz də lazım olan tədbirləri görməyə hazırıq".

# Tələblər yumşaldılıb

## İpoteka kreditləri əldə etmək üçün...

*N.PAŞA*

Son günlər ipoteka kreditlərinin verilməsi qaydalarına edilən dəyişiklik geniş müzakirələrə səbəb olub. Sosial şəbəkələrdə yayılan iddialara görə, ipoteka kreditlərinin götürülməsi üçün tələb olan ilkin ödənişin məbləği artırılır. Bu və digər bənzər iddialar səbəbindən də bəzi vətəndaşlar sözügedən qərarın tətbiq edilməsilə uzunmüddətli kreditlərin əldə olunmasında müəyyən çətinliklərin yaranacağından narahatdırlar.

**Deyilənlər həqiqəti əks etdirirmi? Yeni qərar nəyi dəyişəcək?**

Mərkəzi Bankdan "Yeni Azərbaycan" qəzetinin sorğusuna cavab olaraq bildirildi ki, Mərkəzi Bankın 22 iyul 2022-ci il tarixli 29/1-2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Kredit riskləri, o cümlədən iri kredit riskləri ilə bağlı prudensial normativ və tələblərə dair Qayda"da daşınmaz əmlak krediti üzrə ilkin ödənişə dair tələblər sərtləşdirilməyib, əksinə yumşaldılıb: "Yeni qaydanın qəbulundan sonra daşınmaz əmlak krediti mülkiyyətində yaşayış sahəsi olmayan fiziki şəxs tərəfindən alındıqda və həmin yaşayış sahəsinin ipotekası ilə təmin edildikdə kreditin təminata nisbəti əmsalına dair tələb yumşaldılaraq 70%-dən 85%-ə qaldırılıb (yəni, ilkin ödəniş minimum 30%-dən 15%-ə salınıb). Digər daşınmaz əmlak kreditləri üzrə kreditin təminata nisbəti əmsalına dair tələb isə 2018-ci ilin 16 noyabr tarixindən etibarən tətbiq edildiyi kimi maksimum 70% həddində saxlanılıb. Bununla yanaşı, qeyd edək ki, Mərkəzi Bankın sözügedən tələbləri yalnız bankların daxili daşınmaz əmlak kreditlərinə şamil edilir.



"Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına verilən ipoteka kreditlərinə dair tələblər Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası" ilə tənzimlənir", - açıqlamada bildirilir.

**Mütəxəssislər nə deyir?**

Qəbul edilmiş yeni qərarın mahiyyətini "Yeni Azərbaycan" qəzetinin oxucuları üçün şərh edən daşınmaz əmlak məsələləri üzrə mütəxəssis Ramil Qasımzadə bildirib ki, qərar ilk dəfə ipoteka kreditlərindən faydalanacaq vətəndaşlara şamil edilmir: "Mərkəzi Bank tərəfindən verilən qərar yalnız bir neçə mənzilə sahib olan şəxslərə şamil edilir. Yəni ilk dəfə ipoteka kreditindən yararlananlara şamil edilmir. Amma bir neçə evi, daşınmaz əmlakı olan və yenidən ipoteka krediti üçün müraciət edən vətəndaşlar üçün ilkin ödəniş məbləği artırılır".

R.Qasımzadə hesab edir ki, qərar olduqca düzgün və ədalətlidir. Ekspert qənaətini gəlirləri nisbətən yüksək olan vətəndaşların dövlət tərəfindən verilən güzəştlərdən bir neçə dəfə yararlandığı halda ehtiyacı olanların bu güzəştlərdən yararlana bilməməsi ilə əsaslandırıb: "Hesab edirəm ki, bu, düzgün qərardır. Çünki maddi cəhətdən imkanı olan bəzi vətəndaşlarımız (təbii ki, bu onların hüququdur, edə bilərlər) adına bir neçə mənzil ola-ola, kommersiya şərtləri ilə olsa belə, yenidən ipoteka kreditlərindən faydalanırlar. Yalnız bu kateqoriyadan olan vətəndaşlarımız üçün ilkin ödəniş məbləğinin 30 faiz və daha artıq olması nəzərdə tutulur. Qeyd etdiyimiz kimi, əvvəllər həmin şəxslər ipoteka kreditlərindən yararlandığı üçün digər vətəndaşlarımızın, yəni ilk dəfə ipoteka krediti əldə edən şəxslərin mənzil tapması bir qədər çətinləşirdi. Çünki həm daha az mənzil satışa çıxarılırdı, həm də qiymətlərdə artım müşahidə edilirdi. Lakin Mərkəzi Bank tərəfindən bir neçə daşınmaz əmlaka sahib olan vətəndaşlarımız üçün yüksək məbləğdə ilkin ödəniş tələbinin qoyulması ipoteka kreditlərindən faydalanmayan vətəndaşların da imkanlarını artırmış olacaq".

"Hesab edirəm ki, düzgün və ədalətli qərardır. Çünki ipoteka kreditləri sosialyönümlüdür. Həmin kreditlərin verilməsinin məqsədi də, əslində, ehtiyacı olan, lakin evi olmayan şəxslərin mənzil şəraitini yaxşılaşdırmağa yardım etmək üçündür. Dövlət büdcəsindən vəsait də bu məqsədlə ayrılır", - R.Qasımzadə fikirlərinə yekun vurub.

# İrəvanda nə baş verir?



*Nicat PAŞA*

Ermənistanda vəziyyət gərgin olaraq qalmaqdadır. Son günlər baş verən hadisələr isə daxili durumu bir qədər də ağırlaşdırıb. Buna səbəb isə İrəvanda mülki və hərbi obyektlərə bomba qoyulması məlumatlarının yayılması və "Sürməli" ticarət mərkəzində baş vermiş partlayışdır. Belə ki, ötən həftənin bazar günü Ermənistan Fövqəladə Hallar Nazirliyinə bir sıra obyektlərə bomba qoyulması ilə bağlı xəbər daxil olub. Daxil olan məlumatda İrəvan metropoliteninin bütün stansiyalarına, bütün hərbi və mülki obyektlərə, ticarət mərkəzlərinə, zoopark, parlament binası, Qriqor Lusaroviç kilsəsinə bomba qoyulduğu bildirilib. Əraziyə xilasedicilər, mütəxəssislər cəlb edilib.

Ölkə daxilindəki mövcud gərginliyi nəzərə alaraq artıq ABŞ-ın Ermənistandakı səfirliyi öz vətəndaşlarına xəbərdarlıq ünvanlayıb: "Yerli hakimiyyət orqanlarının məlumatına görə, hazırda fövqəladə hallar xidmətləri Qriqori Lusavoriç kilsəsində, bütün metro stansiyalarında, zooparkda, Milli Assambleyada, eləcə də bütün əsas ticarət mərkəzlərində bomba təhlükəsi ilə bağlı araşdırma aparır". Səfirlik bu yerlərdən uzaq durmaları, yeniliklərdən məlumatlı olmaları, izdihamdan aralanmaları, dostları və ailəni təhlükəsizlik barədə məlumatlandırmalı və ətrafda baş verənlərdən xəbərdar olmaları üçün müraciət edib.

Gərginliyə səbəb olan digər bir hadisə - İrəvanın "Sürməli" topdansatış bazarında baş vermiş partlayış və yanğın nəticəsində xəsarət alanların və ölənlərin sayı da ciddi narahatlıq doğurur. Ölkənin Fövqəladə Hallar Nazirliyinin yaydığı son məlumatda hadisə nəticəsində 61 nəfərin xəsarət aldığı, ölənlərin sayının isə 6 nəfərə çatdığı bildirilir.

Təhlükəsizlik qaydalarının pozulması səbəbindən baş verdiyi iddia edilən hadisələrin, əslində hansı səbəb(lər)dən baş verməsi ilə bağlı tutarlı məlumatlar isə hələlik verilmir. Ermənistan KİV-ləri hadisənin terror aktı olduğunu güman edir. Analitiklərin qənaətinə görə, Ermənistan hökumətinin rəsmi açıqlamaları reallığı əks etdirmir. İstər beynəlxalq KİV-lər, istərsə də yerli erməni mediası proseslərin fonunda hansısa maraqların olduğunu istisna etmirlər.

Mövzu ilə bağlı "Yeni Azərbaycan" qəzetinə danışan siyasi şərhçi Tural İsmayılov bildirib ki, Ermənistandakı proseslərin arxasında başqa məqsədlərin dayandığını indidən güman etmək olar. Onun sözlərinə görə, bu gün Ermənistanda baş verən proseslərin arxasında siyasi güclərin və revanşistlərin dayanma ehtimalı kifayət qədər böyükdür: "Hesab edirəm ki, İrəvanda baş verən yanğın və partlayışın birbaşa hansısa bir təbii fəlakət və ya məsuliyyətsizlik nəticəsində baş verməsi ilə bağlı Paşinyan hakimiyyətinin açıqladığı informasiya reallığı əks etdirmir. Fikrimcə, hazırda Ermənistanda ölkə hakimiyyətinə qarşı revanşistlər ciddi şəkildə dəstəklənirlər. Yay ayları başlamazdan öncə revanşistlərin uzunmüddətli aksiyaları və aylarla davam edən mitinqləri hansısa bir nəticə doğurmadı. Ona görə də gözlənilirdi ki, Ermənistanda Köçəryan və ona bağlı olan komandalar, milliyyətçi və daha faşist mövqeyi olan siyasi müxalif kəsimlər ölkə daxilində qarışıqlıq yaradaraq növbəti xaosu formalaşdırmağa çalışacaqlar".

Politoloq qeyd edib ki, ölkə hakimiyyətinin yekdil siyasət yeritməməsi, Paşinyan komandasının həm daxili, həm də xarici siyasət kursunda normal, vahid ictimai-siyasi və iqtisadi mövqeyinin olmaması nəticədə sadaladığımız problemlərin ortaya çıxması ilə nəticələnir: "Ona görə də Ermənistandakı hadisələr müəyyən qədər daxili çəkişmələr nəticəsində törədildiyi ehtimallarını da güman edirəm. Hətta Ermənistanın hüquq-mühafizə orqanları orada baş verən proseslərdə hansısa faktlar tapsa belə, düşünmürəm ki, bunu Ermənistanın daxili auditoriyasına ünvanlaya bilsinlər. Bütövlükdə proses hələ uzun müddət davam edəcək və nəticədə ölkə daxilində tez-tez bənzər təxribatlar törənə bilər. Bütün bunlar isə nəticədə Ermənistanda hakimiyyət dəyişikliyinə yönəlmiş addımlardır. Lakin istənilən halda, Ermənistanda hakimiyyətin belə tez, qısa bir zamanda hansısa formada devriləcəyini və dəyişəcəyini güman etmirəm".

# Köhnə bazara təzə nırx

## Ədəbiyyatımızı doğma kontekstində yeni alətlərlə bir də incələsək...

**Əvvəli ötən sayımızda...**



***

Sovet dövrü tənqidimiz üç yazıçının adını uzun illər bir cərgədə çəkib: Əkrəm Əylisli, Anar, Elçin. Bu imzaların ədəbi konsepsiya baxımından ortaq cəhətləri olsa da, onları bir-birindən ayıran cəhətlər, zənnimcə, daha qabarıq, daha güclüdür.

Anarın, Elçinin də cəmiyyətin acı reallıqlarına, həyatın dibinə, sosial orqanizmin bətninə fokuslanmış əsərləri var. Məsələn, "Dantenin yubileyi" (Anar) povesti Qoqolun "Şinel"indən, Çexovun erkən hekayələrindən, Mirzə Cəlilin "Poçt qutusu"ndan üzübəri yol gələn kiçik adamın ədəbiyyatımızda yeni libasda zühurudur. Ancaq Anar nəsrinin şah damarı, məncə, onun yaradıcılığındakı bu xətt deyil; "Ağ liman" (eləcə də "Beşmərtəbəli evin altıncı mərtəbəsi"), "Macal" kimi əsərlərində müəllif oxucunun diqqətini insan-cəmiyyət probleminə yox (bəzi məqamlarda sosial motivlər nə qədər qabarıq görünsə də), insan-həyat münasibətlərinə, dünyanın faniliyi, anın təkrarsızlığı, xoşbəxtliyin ötəriliyi, insanın kainatda tənhalığı, kəməksizliyi məsələlərinə yönəldir.

Təhminəyə insan-cəmiyyət qarşıdurması kontekstində baxanların bir qismi onu qəhrəman, başqa bir qismi pozğun elan eləsə də, Təhminə epikürçü obraz tipidir. Təkcə elə onun bir neçə ətirin qarışığından düzəltdiyi, reseptini heç kəsin bilmədiyi, heç vaxt təkrar olunmayası ətir bir metafora kimi dediyimi isbat eləməyə yetər. Xoşbəxtliyin, yaşamın yalnız indiki zaman içində var olduğunu deyən Təhminənin həyat fəlsəfəsi antik dövrün epikürçülüyündən iyirminci əsrin ekzistensializminə qədər yol gəlib. Onun xarakteri də, qəhrəmanı olduğu əsərlərin mahiyyəti də bu kontekstdə araşdırılmalıdır, daha "pozğundur, yoxsa müqəddəs?" kontekstində yox.

***

Elçinin yaradıcılığında ideya-məzmun baxımından həm Əkrəmin, həm də Anarın başlıca əsərləriylə səsləşən, onlarla bir cərgədə duran əsərlər var. Məsələn, "Dolça" povesti kobud, eybəcər sovet gerçəkliyinin ifşasına yönəlibsə, "Ölüm hökmü" romanı (arxa planında sosial-siyasi motivlər tüğyan eləsə belə) bəşəriyyətə kəsilmiş amansız hökmün kafkavari diaqnozu, insanlığın çarəsizlik, əlacsızlıq epiqrizidir. Fəqət Elçin nəsrinin də qızıl xətti, məncə, bunlar deyil; onun yaradıcılığının şah damarı, fikrimcə, mərhum ədəbiyyatşünas Əziz Mirəhmədovun romantik əsərlər kimi xarakterizə elədiyi povest-hekayələrdən keçir: "Gümüşü furqon", "Toyuğun diri qalması", "Şuşaya duman gəlib", "Talvar", "Gül dedi bülbülə"...

Rus ədəbiyyatçıları əsasən də Lev Tolstoyun bədii yaradıcılığı timsalında belə əsərlər haqqında "ruhun (yaxud da qəlbin) dialektikası" ifadəsini işlədirlər. İnsan hansısa sıfır nöqtəsindən yola çıxıb bəlli bir mənəvi-əxlaqi kamillik həddinə çatandan sonra öz sərhədlərini aşıb dünyaya açılır, ruhuyla kainatın ruhuna toxunur, öz eqoistik maraqlarını başqalarının ayaqları altına atır. Əslində bu tip əsərləri romantik də yox, mistik adlandırmaq daha doğru olar. Zənnimcə, Elçinin bu qəbildən olan yaradıcılığı ideya-məzmun baxımından mistisizm kontekstində, fantasmoqorik elementlərə zəngin "sehirli" hekayələri forma-üslub baxımından magik realizm kontekstində öyrənilməlidir.

***

Elçinin "Ölüm hökmü" romanı haqqında dediklərimi ondan da əvvəl Yusif Səmədoğlunun "Qətl günü" əsəri haqqında deyə bilərəm, ən azı o səbəbdən ki, Səmədoğlunun romanı daha əvvəl yazılıb. Bu əsər də bəşəriyyətə kəsilmiş ölüm hökmünün həm çox qəddar, həm də parlaq ifadəsidir. Forma-üslub cəhətdən Bulqakovun "Master və Marqarita", Markesin "Yüz ilin tənhalığı" romanlarına bənzərliyi olsa da, ab-havasının ağırlığı, çıxılmazlıq duyğusunun dərinliyi etibarilə "Qətl günü" daha çox Kafkanın zülmətlə rənglənmiş əsərləriylə səsləşir.

Bəzən bu cür əsərlərin fonunda çığırışan ictimai-siyasi hadisələr, sosial motivlər nəinki oxucuları, hətta peşəkar ədəbiyyat mütəxəssislərini də aldadır. Yusif Səmədoğlunun romanında da belə tələlər az deyil. Kimsə bu əsəri sosial-siyasi, kimsə də dini-mistik əsər saya bilər, ancaq mənə elə gəlir, hər iki yanaşma qüsurludur. "Qətl günü" romanında nə din var, nə siyasət, nə Allah var, nə ədalət; burada Baba Kahanın buzlu bətnindən dünyaya dil uzadan yekə bir Fələk obrazı var ki, uşaq demir, böyük demir, padşah demir, nökər demir, haqlı demir, haqsız demir - hamını qabağına qatıb otarır, sonra da hamını bir-bir kəsib torpağa yedirir...

***

Ötən əsrin 70-80-ci illərində əsərləriylə Azərbaycan nəsrində hadisə yaratmış Mövlud Süleymanlı, Saday Budaqlı kimi yazıçıların da yaradıcılığı, fikrimcə, ədəbi-bədii təsnifləndirmə baxımından konseptual qiymətini almayıb. Burası aydındır ki, Mövlud Süleymanlının başlıca əsərləri ("Köç", "Şeytan", "Yel Əhmədin bəyliyi") magik realizm, Saday Budaqlının nəsri modernizm kanonları çərçivəsində gözdən keçirilməlidir. Bu arada onu da deyim ki, Ramiz Rövşənin yetmişinci illərin əvvəllərində qələmə aldığı hekayələrinə ("Ağrı" silsiləsi), ondan bir neçə il sonra yazdığı "Daş" povestinə də nasirlərin əl işlərinə bənzəməyən şair nəsri kimi hələ də sərrast bədii-estetik dəyər verilməyib...

***

Mövzu o qədər genişdir ki, onu nəinki bir qəzet məqaləsinə, heç bir monoqrafiyaya da sığdırmaq olmaz. Bu deyilənləri yazmağımın da səbəbi ədəbi tənqidə istiqamət vermək iddiasına düşməyim deyil, tam tərsinə, sanballı tənqidçiləri, ədəbiyyat xiridarlarını polemikaya cəlb eləmək yoluyla onlardan nəsə öyrənmək diləyimdir. Biliklərinizi əsirgəməyin, dostlar!

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

# Novruz bayramının ilk təşkilatçısı Şıxəli Qurbanov



*Aysu ABBASOVA*

Bəzi şəxsiyyətlər var ki, tarix nə qədər köhnəlsə də nəsillər onları unutmur. Onlar tarixin elə bir yerində iz qoyurlar ki, hər dəfə vərəqlədikcə xalq həmin illəri, səhifələri təzələyir. Bu gün həmin insanlardan biri - dramaturq, alim, dövlət xadimi Şıxəli Qurbanovun doğum günüdür. Söhbət sovet hakimiyyəti illərində Azərbaycanda Novruz bayramını dövlət səviyyəsində keçirməyi bacaran, buna görə də təqib edilən Şıxəli Qurbanovdan gedir.

Şıxəli Qurban oğlu 1925-ci il avqust ayının 16-da Bakıda qulluqçu ailəsində anadan olub. Orta məktəbi bitirdikdən sonra cəbhəyə gedib, 1941-1945-ci il müharibəsinə Leninqraddan (Sankt-Peterburq) Almaniyayadək döyüş yolu keçib. O, gənc yaşlarında Azərbaycan yazıçısı, dramaturq, şair, filoloq-alim, ədəbiyyatçı, dövlət və ictimai xadim kimi tanınıb, filologiya elmləri doktoru, Azərbaycan Dövlət mükafatı və Üzeyir Hacıbəyov adına mükafatın laureatı olub.

Sirr deyil ki, sabiq SSRİ dönəmində sovet imperiyası xalqların əksəriyyətinə milli dəyərləri unutdurmağa, yaddan çıxarmağa cəhd göstərirdi. Mərkəzin təkid və tələbi ilə ölkəmizdə Məhərrəmlik, Orucluq, Ramazan ayları, Novruz bayramının qeyd olunmasına qadağa qoyulmuşdu. İmperiyanın bu ədalətsiz, hegemon qadağasına ilk dəfə barışmaz mövqe tutan, milli adət-ənənəyə sadiq Şıxəli Qurbanov olub. 1967-ci ildə məhz onun təşəbbüsü ilə respublika ərazisində, xüsusilə Bakı şəhərində Novruz bayramı böyük təntənələrlə qeyd olunub.

O zaman Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Vəli Axundov Şıxəli Qurbanova təhlükəli işlər gördüyü barədə xəbərdarlıq edib. Şıxəli Qurbanov isə öz hərəkətlərinə görə özü cavab verəcəyini deyib. Şıxəli Qurbanova qədər Azərbaycanın partiya nomenklaturasında belə bir cəsur addımı atana rast gəlinməyib. Mərkəzi Komitə katibi, şair, dramaturq və elmlər doktoru olan Ş.Qurbanov bu addımı ömrü bahasına atıb.

Həmin hadisədən sonra Ş.Qurbanovu bəzən gizli, bəzən açıq şəkildə təqib edirdilər. Nömrəsiz maşınlar, mülki geyimli şəxslər onu nəzarətə götürür, izləyir, qarabaqara təqib edirdilər. Dördüncü sui-qəsdi namərd diş həkiminin əlləri ilə gerçəkləşdirirlər. Novruz bayramından iki ay sonra may ayının 24-də Şıxəli Qurbanov dişlərini müalicə etdirmək üçün həkimə gedir. Elə oradaca müəmmalı şəkildə vəfat edir. Həkim dişinə iynə vurarkən Şıxəli Qurbanov ölür, həkim pəncərədən qaçır. Ailəsi onun ölümünün dövlət səviyyəsində hazırlandığını iddia edir.

Mayın 23-də Şıxəli Qurbanov özünün müəllifi olduğu "Sənsiz" dramının məşqi zamanı zalı yarımçıq tərk etməli olur, çünki xaricdən qonaqlar gəlir. Şıxəli Qurbanov zaldan gedərkən bu sözləri səsləndirir: ""Sənsiz"ə mənsiz baxarsınız...". Sanki ölümün artıq onu haqladığı ürəyinə damır. Mayın 24-də göstərilməli olan tamaşa təxirə salınır. Tamaşaya gələnlərə elan edirlər ki, müəllif rəhmətə gedib. Eşitdikləri üzücü xəbərdən sonra insanlar xəstəxanaya axışır. Şıxəli Qurbanovun dəfni günü bütün Bakı matəmə batır. Şıxəli Qurbanov Bakıdakı Fəxri xiyabanda dəfn olunur. Ölümündən sonra Musiqili Komediya Teatrına, Bakı küçələrindən birinə Şıxəli Qurbanovun adı verilib.

*G.QABİLQIZI*

**Yaradıcılığını Vətənimizin azadlığı, müstəqilliyi və bütövlüyü uğrunda mübarizəyə həsr etmiş, milli şüurun yetişməsində mühüm rol oynamış və gənc nəslin milli-mənəvi dəyərlər sistemində tərbiyə olunması işinə böyük xidmətlər göstərmiş söz ustadlarımızdan olan Bəxtiyar Vahabzadə 1925-ci il avqustun 16-da Şəki şəhərində fəhlə ailəsində anadan olub.**





## "Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər

Azərpoçt Poçtdaşıma Mərkəzi - 0125984955, 0552004544
Azərmətbuat ASC - 0124411991, 0124404694
Səma MMC - 0125940252, 0503336969
Pressaİnform MMC - 0703400100, 0504560835
Qaya MMC - 0125667780, 0502352343
Qasid MMC- 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
Kaspi Mətbuat Yayım - 0125106196, 0502685868
Ziya LTD - 0124977696, 0503067744

**1 nüsxə qəzet üçün 6 aylıq abunənin qiyməti 52.80 AZN**
**1 nüsxə qəzet üçün 1 illik abunənin qiyməti 105.60 AZN**

# Bəxtiyar Vahabzadə - 97

Müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Bəxtiyar Vahabzadənin yaradıcılığında vətənpərvərlik və azadlıq mühüm yer tutur. Şairin poeziyası tariximizi unutdurmağa çalışanlara qarşı mübarizə poeziyasıdır. O, mübariz ruhlu şeirləri ilə alovlu bir natiq kimi xalqı yad təsirlərə uymamağa, milli və mənəvi dəyərləri qoruyub yaşatmağa çağırır. B.Vahabzadə, həmçinin, ana dili mövzusunda çoxlu şeirlər yazıb. Şairin bu qəbildən olan əsərlərindən biri də "Latın dili" şeiridir. B.Vahabzadə "Latın dili" şeirini yüksək vətəndaşlıq mövqeyi ilə qələmə almışdır. Əsəri oxuyanda şairin ana dilinin dərin təəssübkeşi olduğu aydın hiss olunur. Ana dilini böyük məhəbbətlə sevən şair ona son dərəcə həssaslıqla yanaşır, dili yaşatmağı hər kəsin qeyrət məsələsi, vətəndaşlıq borcu kimi səciyyələndirir. Vətəndaş şairin qənaətinə görə, dil xalqın mövcudluğunu təsdiqləyən çox mühüm bir amildir.

Bəxtiyar Vahabzadə həm də 60-cı illərdən başlayan milli azadlıq hərəkatının öncüllərindən biri idi. O, 1958-ci ildə yazdığı "Gülüstan" poeması ilə iki yerə parçalanmış Azərbaycanın tarixi faciəsini dilə gətirmiş, rus və fars imperiyasının pəncəsi altında inləyən Azərbaycan xalqının azadlıq və istiqlal uğrundakı ədalətli mübarizəsinə qoşulub. Xalqı oyandırmaq məqsədilə əsərlərini qələmə alan Bəxtiyar Vahabzadə şeirlərində vətən, millət, ailə, təbiət, dil, azadlıq həsrəti kimi mövzuları ən güclü və dərin məzmunlarla izah edib.

Məlumdur ki, keçmiş SSRİ-nin tərkibinə daxil olan respublikalarda, o cümlədən də Azərbaycanda milli dillərin işlədilməsi dairəsi məhdudlaşdırılırdı. Ana laylası tək şirin Azərbaycan dilinin başı üstünü qara buludlar alması, təbii ki, qaynar təbiətli, vətənpərvər ruhlu şairi narahat etməyə bilməzdi. Bu mənada B.Vahabzadənin şeirləri doğma dilin taleyi ilə bağlı həyəcan təbili idi.

Bu gün məmnunluqla deyə bilərik ki, sevimli şairimiz B.Vahabzadənin ana dilinin taleyi ilə bağlı narahatlığına səbəb olan amillər aradan qaldırılıb. Belə ki, ana dilimiz müstəqil Azərbaycan Respublikasının rəsmi dövlət dilidir. Dövlət idarələrində yazışmalar bu dildə aparılır, dilimiz ən yüksək tribunalardan səslənir. Bu isə hər birimizin qəlbini sevinc və iftixar hissi ilə doldurur, eyni zamanda bizim ana dilinə münasibətdə məsuliyyətimizi daha da artırır.

***İdman***



## İslamiadada 58 medalla 4-cü pillədəyik

Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarının 10-cu yarış günündən sonra Azərbaycanın aktivindəki medalların sayı 58-ə yüksəlib. Medallardan 18-i qızıl, 22-i gümüş, 18-i bürünc əyarlıdır. Bu nəticə ilə Azərbaycan iştirakçı ölkələrin ümumi sıralamasında 4-cü pillədə qərarlaşıb.

İlk 3 mövqedə medal əyarında müvafiq olaraq, Türkiyə 209 (79 qızıl, 73 gümüş, 57 bürünc), İran 94 (32 qızıl, 24 gümüş, 38 bürünc) və Özbəkistan 86 (27 qızıl, 24 gümüş, 35 bürünc) medalla qərarlaşıb. İndiyədək ümumilikdə 56 ölkədən 42-si medal qazana bilib.

Qeyd edək ki, Azərbaycan yığması medallarını 11 növdə - güləş (8 qızıl, 8 gümüş, 7 bürünc), bədii gimnastika (5 qızıl, 2 gümüş, 1 bürünc), aerobika (2 qızıl, 3 gümüş), taekvondo (1 qızıl, 2 gümüş, 2 bürünc), idman gimnastikası (1 qızıl, 2 gümüş, 1 bürünc), atletika (1 qızıl, 2 gümüş), qılıncoynatma (1 gümüş, 2 bürünc), həndbol (1 gümüş), üzgüçülük (1 gümüş), ağırlıqqaldırma (3 bürünc) və para-oxatmada (2 bürünc) əldə edib.

***MURAD***

## Boksçularımız Millətlər Kubokunda beş medal qazanıb



Serbiyanın Vrbas şəhərində yeniyetmə boksçular arasında Millətlər kubokuna yekun vurulub. Azərbaycan milli komandası 18 ölkədən 151 idmançının qatıldığı ənənəvi yarışda 3 qızıl və 2 gümüş medal qazanıb. Məşqçi Ağası Məmmədovun rəhbərlik etdiyi yığmanın heyətində Bilal Nəzərov (46 kq) bütün rəqiblərindən güclü olaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Onun çəki dərəcəsində Faiq Mollayev ikinci yeri tutub.

50 kq çəki dərəcəsində Tağı Nəsibov da qızıl medala yiyələnib. O, finalda Daniel İrofteni (Rumıniya) 4:1 (30:27, 29:28, 30:27, 28:29, 30:27) hesabı ilə məğlub edib. Nəsibov bu qələbə ilə 1/4 finalda komanda yoldaşı Vaqif Hacıyevə qalib gələn rumından revanş da alıb. Məhəmmədəli Qasımzadə (57 kq) də Vrbasda Azərbaycan himini səsləndirib. O, finalda Arun Tudoroyu (Rumıniya) üzərində 5:0 (30:27, 30:27, 29:28, 30:27, 30:27) hesabı ilə inamlı qələbə qazanıb və qızıl medala layiq görülüb.

54 kq-da çıxış edən Məhəmmədəli Aşıraliyev (54 kq) isə ikinci yerlə kifayətlənib. Onun çəkisində Aydar Kadirxan (Qazaxıstan) çempion olub. Beləliklə, 3 qızıl və 2 gümüş medal qazanan Azərbaycan yığması Millətlər Kubokunda komanda hesabında 3-cü yeri tutub. Məşqçi Ağası Məmmədov bu nəticəyə əsasən kubokla mükafatlandırılıb. 57 kq-da yarışın qalibi olan Məhəmmədəli Qasımzadə həm də ən döyüşkən boksçu kimi xüsusi mükafata sahib olub.

## "Nar" YayFest "Könüllülük" düşərgəsində iştirak etdi



"Nar" Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) təşkilatçılığı ilə Şamaxıda baş tutan və 250-yə yaxın Azərbaycan Könüllüsünün iştirak etdiyi "YayFest 2022" düşərgəsinə qatılıb. Artıq üçüncü dəfədir həyata keçirilən festivalın məqsədi dövlət gənclər siyasətinə uyğun olaraq gənclər üçün müxtəlif sahələrdə yaradılan geniş imkanların təşviqi, ölkəmizin müxtəlif bölgələrində yaşayan gənclərin sosiallaşması, onların müasir peşə və trendlər barədə məlumatlandırılmasından ibarətdir.

"Nar"ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov "Özəl sektorlarda könüllülük fəaliyyətinin dəstəklənməsi" mövzusunda panel görüşdə iştirak edib. Düşərgənin 4-cü günündə baş tutan interaktiv görüş çərçivəsində "Nar"ın AKTİ ilə əməkdaşlığı əsasən könüllülər üçün yaradılmış fürsətlər barədə ətraflı məlumat verilib, iştirakçıların təklif və sualları dinlənilib.

Qeyd edək ki, gənclərin təhsil və karyera inkişafını hər zaman dəstəkləyən "Nar" bir müddətdir ki, AKTİ ilə memorandum imzalayıb. Memoranduma əsasən, Azərbaycan könüllüləri arasında effektiv koordinasiyanın təmin edilməsi, əlaqələrin asanlaşdırılması məqsədilə, "Nar"ın xüsusi yaratdığı tarif əsasında könüllülər arasında mobil zənglər pulsuzdur.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5371
Sifariş: 2305
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Nicat Dilqəmli